RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 153 (8746) ÇƏRŞƏNBƏ AXŞAMI, 27 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## İlham Əliyevin nəhəng enerji layihələri geniş sahələri əhatə edir

Azərbaycanın 1994-cü ildən bəri gerçəkləşdirdiyi qlobal neft-qaz və ixrac layihələrinin hər biri tarixi nailiyyətdir. Bunlardan biri də Avropanın enerji təhlükəsizliyinə töhfə verən "Cənub qaz dəhlizi"dir. Təsadüfi deyil ki, bu il iyulun 18-də geniş tərkibdə görüşdən sonra Prezident İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransındakı bəyanatında dövlətimizin başçısı bu layihənin tamamlanmasını xüsusi qeyd etdi.

Xatırladaq ki, ötən ilin sonuncu günündə "Cənub qaz dəhlizi"nin sonuncu - dördüncü seqmenti olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) istismara verildi. Cari il yanvarın 1-dən indiyədək ölkəmizdən Avropa İttifaqına üzv dövlətlərə, xüsusilə İtaliya, Yunanıstan və Bolqarıstana 3 milyard kubmetrdən çox təbii qaz ixrac olunub. Avropa bazarına ixrac olunan mavi yanacağın həcmi getdikcə artacaq. Çünki qaz təchizatçısı kimi bizim potensialımız böyükdür. Bu da ixracatçı olaraq Azərbaycan üçün, eləcə də tranzit ölkələr üçün və istehlakçılar üçün daha çox imkanlar yaradacaq. Azərbaycan qazı təkcə yeni marşrutdan olan qaz deyil, yeni mənbədən olan qazdır və bu, layihəni, həqiqətən də, enerji təhlükəsizliyi layihəsinə çevirir.

Prezident İlham Əliyev bu nəhəng layihəni belə xarakterizə etmişdir: "Cənub qaz dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Biz Avropa İttifaqı ilə birlikdə uzun illərdir "Cənub qaz dəhlizi" Məşvərət Şurasına sədrlik edirik. Avropa İttifaqı və Azərbaycanın rəhbərliyi altında Məşvərət Şurası həmçinin bu layihənin uğurla həyata keçirilməsinin mühüm amili olub. 3500 kilometr uzunluğunda inteqrə olunmuş kəmər sistemi və nəhəng "Şahdəniz-2" qaz yataqlarının işlənməsi ölkələr, şirkətlər və beynəlxalq maliyyə institutları arasında əməkdaşlığın nadir təcrübəsidir."

"Cənub qaz dəhlizi" layihəsinə yatırılmış ümumi investisiyaların həcmi 33 milyard ABŞ dollarından çoxdur. Həm də bu, Avropanın enerji təhlükəsizliyinə dəstək verən yeganə layihəmiz deyil. Azərbaycan 15 ildən çoxdur ki, Avropa istehlakçılarının etibarlı xam neft təchizatçısıdır.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ( BTC) əsas ixrac neft kəmərinin tam sistem kimi istifadəyə verilməsinin 15 ili bu il iyulun 13-də artıq tamam oldu. Məlum olduğu kimi, BTC Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan nefti 1768 kilometr məsafə qət edərək Bakı yaxınlığındakı Səngəçal terminalından Türkiyənin Ceyhan limanınadək daşıyır. Oradan isə Azərbaycan neftinin dünya bazarlarına yolu başlanır.

Prezident İlham Əliyev bu il iyulun 22-də Daşkəsən rayonuna səfəri çərçivəsində "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanış olandan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə də enerji layihələrinin əhəmiyyətindən, o cümlədən onların Avropa İttifaqı ilə əməkdaşlıqda önəm daşıdıqlarından bəhs etmişdir. Bu layihələrin əməkdaşlıq üçün möhkəm zəmin yaratdığını vurğulamışdır: "İllər keçdikcə əməkdaşlığın həcmi də, əhatə olunan sahələr də artır. Əgər ilkin mərhələdə daha çox enerji məsələləri gündəlikdə idisə, bu gün biz bunları həll etmişik. "Cənub qaz dəhlizi"ni həll etmişik, Azərbaycanın təşəbbüsü ilə inşa etmişik. Avropa İttifaqı da burada öz müsbət rolunu oynamışdır. Çünki "Cənub qaz dəhlizi"nin Məşvərət Şurasının sədri Azərbaycan və Avropa İttifaqıdır. Onu da bildirməliyəm ki, Məşvərət Şurasının keçirilməsi təşəbbüsünü də mən irəli sürmüşdüm. Avropa İttifaqına təklif etmişdim, onlar da müsbət qarşıladılar. Hər il Məşvərət Şurası böyük səmərə ilə keçirilir."

"Cənub qaz dəhlizi" layihəsinin təşəbbüskarının və aparıcı qüvvəsinin Azərbaycan olduğunu bütün dünya bilir və etiraf edir. Layihəni daim irəliyə aparan dövlət başçısının inamı, yaratdığı əməkdaşlıq platforması, hədəfləri düzgün müəyyən etməsi, strategiyanı dəqiq seçməsi olub. Əlbəttə, burada heç bir şərhə ehtiyac yoxdur. Bununla belə, xatırlatmaq yerinə düşər ki, 2015-2020-ci illərdə hər il bir dəfə olmaqla keçirilən "Cənub qaz dəhlizi" Məşvərət Şurasının 6 toplantısının hamısına Azərbaycan evsahibliyi edib. Yalnız sonuncu, 7-ci iclas pandemiya səbəbindən videokonfrans şəklində keçirilib. Bunun özü də layihədə Azərbaycanın liderliyini təsdiqləyən faktdır.

Məşvərət Şurası bu layihənin inkişaf etdirilməsində mühüm rol oynayıb. Layihə artıq tamamlandığından şuranın fevralın 11-də keçirilən builki iclası xüsusilə əhəmiyyətli idi.

Prezidentin qeyd etdiyi kimi, enerji məsələlərindən başlanan fəal əməkdaşlıq indi daha geniş sahələri əhatə edir.

***"Azərbaycan"***

## Qarabağın üzərindən «dağ» götürülüb

### İlham Əliyevin hərbi-diplomatik qələbəsi bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq formatının reallaşmasına zəmin yaradıb

Ermənistan tərəfi son zamanlar xain davranışlarından əl çəkməyərək davamlı olaraq Azərbaycana qarşı təxribatlar törədir, mövqelərimizi atəşə tutur, hərbçilərimizin həyatına qəsd edərək vəziyyəti gərginləşdirməyə, yenidən münaqişə yaratmağa cəhd edir. Amma bu gün "Qarabağ münaqişəsi" deyə bir anlayış mövcud deyil və 44 günlük Vətən müharibəsi zamanı bu birdəfəlik həll olunub.

Baş Sərkərdəmiz İlham Əliyevin "dəmir yumruq" əməliyyatı ilə Azərbaycan Ordusu erməni faşizmi üzərində qəti qələbə çalaraq ərazi bütövlüyümüzü bərpa edib, düşməni torpaqlarımızdan qovaraq BMT Təhlükəsizlik Şurasının 27 il idi ki, kağız üzərində qalan qətnamələrini yerinə yetirib.

Şanlı Ordumuzun düşmən üzərində qazandığı tarixi və parlaq qələbə, regionda, o cümlədən Vətənimizdə yeni siyasi, iqtisadi, hərbi reallıqlarla yanaşı, bölgədə yeni təhlükəsizlik, əməkdaşlıq formatına zəmin yaradıb...

### Dağlıq yox, Qarabağ var!

Artıq Azərbaycanın işğaldan azad edilən torpaqlarında sürətli və böyük quruculuq işləri həyata keçirilir.

*Ardı 5-ci səh.*

*XXXII Tokio Yay Olimpiya Oyunları*

### Tokioya fərəhlə, Bakıya zəfərlə

## Mübarizə var, medal yox

Olimpiya oyunlarında hər bir idman növü üzrə yarışlar gərgin və maraqlı xarakter almağa başlayıb.



Şübhəsiz ki, Azərbaycan Tokioda yarışan atletlərimizdən medallar gözləyir. Hər gün milyonlarla tamaşaçının nəbzi Yaponiyada idmançılarımızla vurur. Təəssüf ki, hələlik atletlərimiz onlara inananların etimadını doğrulda bilmirlər.

XXXII Yay Olimpiya Oyunlarında iyulun 24-dən etibarən start götürən cüdo yarışlarında ölkəmizin hesabına ilk medalı cüdoçumuz Rüstəm Orucov (73 kq) yazdıra bilərdi. Lakin bürünc mükafat uğrunda yarışan təmsilçimiz cənubi koreyalı həmkarına uduzaraq olimpiadanı medalsız başa vurdu.

*Ardı 7-ci səh.*

## Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Dövlət başçıları arasında mütəmadi təmasların əlaqələrimizin genişlənməsində xüsusi rolu vurğulandı.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olundu. Qeyd edildi ki, partiyalar arasında əlaqələr ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Eyni zamanda ölkələrimizin müxtəlif qurumlarının nümayəndələrinin qarşılıqlı səfərlərinin əhəmiyyətinə toxunuldu.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, ölkələrimiz arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.



## Azərbaycan və Serbiya bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəkləyir



İyulun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasının xarici işlər naziri Nikola Selakoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Serbiyanın xarici işlər naziri Nikola Selakoviç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Serbiya Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Vuçiçə çatdırmağı xahiş etdi.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu, Bakıda keçiriləcək Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasının əməkdaşlığın genişlənməsi baxımından önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycanın və Serbiyanın bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəklədiyi bildirildi. İqtisadi əməkdaşlıq məsələləri müzakirə olundu. Prezident İlham Əliyev dedi ki, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində dost ölkələrin şirkətləri iştirak edir. Bu baxımdan Serbiya şirkətlərinin gələcəkdə bu işlərdə iştirakının mümkünlüyü bildirildi.

## Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrlərinin birinci üçtərəfli görüşü keçiriləcək

İyulun 27-də Milli Məclisdə ilk dəfə olaraq Azərbaycan, Pakistan və Türkiyənin parlament sədrlərinin üçtərəfli görüşü keçiriləcək. Tədbirin yekununda Bakı Bəyannaməsinin imzalanması gözlənilir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun və Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Əsəd Qeysərin başçılıq etdikləri nümayəndə heyətləri iyulun 26-da ölkəmizə səfərə gəliblər.



Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyə və Pakistan spikerlərini Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Sədr müavini Adil Əliyev, Türkiyənin və Pakistanın ölkəmizdəki səfirləri Cahit Bağçı, Bilal Haye və digər rəsmi şəxslər qarşılayıblar. Səfər çərçivəsində Pakistan və Türkiyə parlament sədrlərinin Qarabağda Ermənistanın işğalından azad olunmuş ərazilərə səfərləri də gözlənilir.

## M.İ.Yevdayevin “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Milix İlxananoviç Yevdayev “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## A.A.Məhərrəmovun Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Abel oğlu Məhərrəmov Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## R.E.Məmmədovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Eynəddin oğlu Məmmədov Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## X.Z.İbrahimin Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xəzər Zafir oğlu İbrahim Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## E.İ.Sultanovun Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elnur İxtiyar oğlu Sultanov Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## C.Ə.Axundovun Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cavanşir Əşrəf oğlu Axundov Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## F.E.İsgəndərovun Azərbaycan Respublikasının Belçika Krallığında, Lüksemburq Böyük Hersoqluğunda fövqəladə və səlahiyyətli səfiri və eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Eldar oğlu İsgəndərov Azərbaycan Respublikasının Belçika Krallığında, Lüksemburq Böyük Hersoqluğunda fövqəladə və səlahiyyətli səfiri və eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## E.A.Quliyevin “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Eldar Allahyar oğlu Quliyev “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## F.E.İsgəndərovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Eldar oğlu İsgəndərov Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## E.E.Süleymanovun Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elin Emin oğlu Süleymanov Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## V.İ.Sadıqovun Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vaqif İsmayıl oğlu Sadıqov Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## Q.M.İsrafilovun Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qalib Malik oğlu İsrafilov Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## X.Z.İbrahimin Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xəzər Zafir oğlu İbrahim Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## V.İ.Sadıqovun Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vaqif İsmayıl oğlu Sadıqov Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## “Torpaq bazarı haqqında”, “Beynəlxalq xüsusi hüquq haqqında”, “Dövlət satınalmaları haqqında”, “Xüsusi iqtisadi zonalar haqqında”, “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” və “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Torpaq bazarı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390; 2002, № 5, maddə 241; 2003, № 1, maddələr 11, 13; 2006, № 6, maddə 478, № 8, maddə 657; 2007, № 1, maddə 3, № 6, maddə 571; 2008, № 5, maddə 348, № 12, maddə 1048; 2012, № 6, maddə 504; 2014, № 3, maddə 235; 2015, № 3, maddə 245, № 10, maddə 1096; 2018, № 11, maddə 2206; 2020, № 7, maddə 827, № 12 (I kitab), maddə 1423) 2-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Ələt azad iqtisadi zonasında torpaq bazarının təşkilinin və torpaq bazarında iqtisadi və hüquqi məsələlərin tənzimlənməsi sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 2.** “Beynəlxalq xüsusi hüquq haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 708) aşağıdakı məzmunda 1.6-cı maddə əlavə edilsin:

“1.6. Ələt azad iqtisadi zonasında xarici elementli mülki hüquq münasibətlərinə tətbiq olunmalı hüquq normalarının müəyyən edilməsi sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 3.** “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 11, № 12, maddə 706; 2005, № 12, maddə 1083; 2006, № 12, maddə 1005; 2010, № 3, maddə 173, № 4, maddə 276; 2016, № 2 (I kitab), maddə 205, № 4, maddə 628; 2017, № 5, maddə 699; 2018, № 12 (I kitab), maddə 2523; 2019, № 7, maddə 1208, № 8, maddə 1372; 2020, № 5, maddə 525; Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 330-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 1.5-ci maddə əlavə edilsin:

“1.5. Bu Qanunun müddəaları Ələt azad iqtisadi zonasının fəaliyyəti çərçivəsində malların (işlərin və xidmətlərin) satın alınmasına şamil edilmir və bu sahədə münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 4.** “Xüsusi iqtisadi zonalar haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 396; 2013, № 2, maddə 92) aşağıdakı məzmunda 3.3-cü maddə əlavə edilsin:

“3.3. Bu Qanunun müddəaları Ələt azad iqtisadi zonasına şamil edilmir, həmin zonanın yaradılması və idarə edilməsi ilə bağlı hüquqi və iqtisadi münasibətlər, həmin zonada sahibkarlıq fəaliyyətinin təşkili qaydaları “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 5.** “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 778; 2014, № 10, maddə 1163; 2017, № 6, maddə 1027, № 7, maddə 1257, № 12 (I kitab), maddə 2198; 2018, № 4, maddə 638) 3-cü maddəsinin mətni 3.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 3.2-ci maddə əlavə edilsin:

“3.2. Ələt azad iqtisadi zonasında ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 6.** “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 758; 2015, № 11, maddə 1265; 2018, № 4, maddə 637) aşağıdakı məzmunda 2.4-cü maddə əlavə edilsin:

“2.4. Ələt azad iqtisadi zonasında uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyət göstərən qurumların akkreditasiyası sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

## E.E.Süleymanovun Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Amerika Dövlətləri Təşkilatı yanında daimi müşahidəçisi vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elin Emin oğlu Süleymanov Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Amerika Dövlətləri Təşkilatı yanında daimi müşahidəçisi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2021-ci il*

## “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” 2009-cu il 24 iyun tarixli 116 nömrəli, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2014-cü il 20 fevral tarixli 111 nömrəli, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2015-ci il 4 may tarixli 516 nömrəli, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2016-cı il 28 aprel tarixli 888 nömrəli və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” 2009-cu il 24 iyun tarixli 116 nömrəli, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2014-cü il 20 fevral tarixli 111 nömrəli, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2015-ci il 4 may tarixli 516 nömrəli, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2016-cı il 28 aprel tarixli 888 nömrəli və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının 1-ci hissəsindən “fəaliyyət göstərən səfirlik və konsulluqlarında” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun fəaliyyətinin təmin edilməsi və “İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. “Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun Strukturu” təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun (bundan sonra - Agentlik) nizamnamə fondu 1 milyon manatdır və “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1241 nömrəli Fərmanının 1.11.7.4-cü yarımbəndində nəzərdə tutulan vəsaitin qalığı hesabına formalaşır.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. xarici dövlətlərin investisiya təşviqi qurumlarının maliyyələşdirilməsi sahəsində mütərəqqi təcrübəsi nəzərə alınmaqla, Agentliyin fəaliyyətinin maliyyələşdirilməsi mexanizmi ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Agentlik tərəfindən ixracatçılara və investorlara göstərilən xidmətlərin siyahısını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikası Prezidentinə məlumat versin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Agentliyin fəaliyyətinin təşkili ilə bağlı tədbirlər görsün;

5.2. Agentliyin əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının (vəzifə maaşlarının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. “İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2608) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.2-ci, 4.4-cü bəndlər və 6-cı hissə ləğv edilsin;

6.2. 2.3-cü bənddə “rəhbərliyi” sözü “ümumi rəhbərliyi və nəzarəti” sözləri ilə, “9” rəqəmi “7” rəqəmi ilə əvəz olunsun və həmin bəndə “göstərən” sözündən sonra “Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi” sözləri əlavə edilsin;

6.3. 2.4-cü bənddə “, kənd təsərrüfatı və vergilər” sözləri “və kənd təsərrüfatı” sözləri ilə əvəz edilsin və həmin bənddən “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavinindən,” sözləri çıxarılsın;

6.4. 3.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.1.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;”;

6.5. aşağıdakı məzmunda 3.1.3-cü və 3.1.4-cü yarımbəndlər əlavə edilsin:

“3.1.3. Agentliyin strukturunun təsdiqi;

3.1.4. Agentliyin idarəetmə orqanlarının yaradılması və Müşahidə Şurasının üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;”;

6.6. 5.1-ci bənddə “Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin” sözləri “tədbirlər görsün” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan regionda davamlı sülhün təmin olunmasını istəyir

## Sahibə QAFAROVA: "Hazırlanan hesabat obyektiv faktlara əsaslanmalı və AŞ PA ədalətli bir yanaşma ortaya qoymalıdır"



İyulun 26-da Milli Məclisin Sədri Sahibə Qafarova Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin üzvü, məruzəçi Pol Qavan ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Sahibə Qafarova Azərbaycanla Avropa Şurası arasında əlaqələrin uğurlu tarixi proses keçdiyini qeyd edib. Milli Məclisin Sədri bildirib ki, Azərbaycan təşkilata üzv olduğu dövr ərzində üzərinə götürdüyü öhdəliklərə daim hörmətlə yanaşıb və qarşı tərəfdən də eyni mövqenin nümayiş etdirilməsini gözləyir. Biz Avropa Şurasında Azərbaycanla bağlı obyektiv yanaşmanın olmasını istəyirik. Milli Məclisin Sədri bir sıra hallarda təşkilatda ölkəmizə qarşı qeyri-obyektiv və ədalətsiz münasibətin, yalan iddialara əsaslanan qərəzli yanaşmanın olduğunu bildirərək, bu kimi halları sərt tənqid edib.

Sahibə Qafarova məruzəçi Pol Qavan tərəfindən hazırlanan "Ermənistan və Azərbaycan arasında münaqişənin humanitar nəticələri" adlı hesabat haqqında danışaraq ümid etdiyini bildirib ki, sənəd obyektiv və ədalətli olacaq. Sədr deyib ki, Azərbaycan həmişə AŞ PA-da artıq həllini tapmış Qarabağ münaqişəsi, Ermənistanın işğalçılıq siyasəti, qaçqınlar və məcburi köçkünlərin məsələləri haqqında müzakirələrin aparılmasını və müvafiq obyektiv sənədlərin qəbul olunmasını istəyib və bununla bağlı dəfələrlə təşkilatda məsələ qaldırıb. İndi hazırlanan hesabat obyektiv faktlara əsaslanmalı və AŞ PA ədalətli bir yanaşma ortaya qoymalıdır.

Sonra Sahibə Qafarova diqqəti 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi tarixi qələbə və sonrakı mərhələdə Ermənistan tərəfindən törədilən təxribatlara yönəldib. Bildirilib ki, 30 il ərzində münaqişənin həllinə vasitəçilik edən ATƏT-in Minsk qrupunun fəaliyyəti heç bir nəticə vermədi. Nəhayət, ötən il Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik erməni işğalına son qoyaraq ərazi bütövlüyünü bərpa etdi və öz gücü hesabına BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi.

Məruzəçi Pol Qavanın Ermənistanda yalnız Yerevan şəhərində səfərdə olduğu üçün Azərbaycanda da təkcə Ağdam şəhərinə gedəcəyi barədə məlumata münasibət bildirən Sahibə Qafarova qeyd edib ki, Ermənistan işğala məruz qalmayıb, Ermənistan ərazisində nə müharibə olub, nə də orada müharibə dağıntıları var. Bu gün Azərbaycanın bir çox şəhər və rayonlarında Ermənistanın işğalçılıq siyasətinin, terrorunun, müharibə cinayətlərinin izlərinə rast gəlindiyini vurğulayan Sahibə Qafarova təəssüf hissi ilə qeyd edib ki, Pol Qavan Gəncə şəhərinə səfər etməyəcək. Qeyd edib ki, Gəncə şəhərinə Ermənistan tərəfindən endirilən raket zərbələri nəticəsində mülki insanlar həlak olublar. Əgər məruzəçi gedib orada Ermənistan tərəfindən törədilən müharibə cinayətlərini, terroru öz gözləri ilə görsə, onda hazırlayacağı hesabat daha dolğun ola bilər.

Pol Qavanın Ağdam şəhərinə səfəri zamanı Ermənistan tərəfindən törədilən dağıntılara şahid olacağını bildirən Sahibə Qafarova vurğulayıb ki, Ağdam bu gün, sözün həqiqi mənasında, Xirosimanı xatırladır. Ermənistan 30 il ərzində işğal altında saxladığı Ağdamda və bu gün işğaldan azad olunmuş digər şəhər və rayonlarımızda şəhərləri, kəndləri, xalqımıza məxsus tarixi, mədəni abidələri, məscidləri vəhşicəsinə dağıdıb.

Görüşdə S.Qafarova Azərbaycanın regionda davamlı sülhün təmin olunmasını istədiyini, bunun üçün lazımi addımları atdığını və bundan sonra da atmağa davam edəcəyini qeyd edib. Lakin Ermənistan təxribatçı əməllərindən əl çəkmir, sərhəddə təxribatlar törədir, hərbi əsirlər barədə həqiqətə uyğun olmayan məlumatlar yayır. O, Ermənistanın minalanmış ərazilərin tam xəritəsini təqdim etməkdən imtina etməsinin müharibə cinayəti olduğunu vurğulayaraq qeyd edib ki, son dövrlərdə 140-dan çox şəxs Ermənistan tərəfindən basdırılan minaların partlaması nəticəsində həlak olub və yaralanıb. Bunların sırasında hərbi qulluqçularla yanaşı, mülki şəxslər də olub. Təkcə Ağdam rayonunda Ermənistan tərəfindən 97 min tank və piyada əleyhinə mina basdırılıb. 30 il ərzində Ermənistanın işğalı altında qalan digər şəhər və rayonlarımızda da vəziyyət eynidir. Ona görə də beynəlxalq ictimaiyyət Ermənistana minalanmış ərazilərin xəritəsini təqdim etməsi üçün təzyiq göstərməli, ondan müharibə cinayətlərinə son qoymasını tələb etməlidir.

Səmimi qəbula və ətraflı məlumatlara görə minnətdarlığını bildirən AŞ PA-nın Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin üzvü, məruzəçi Pol Qavan hazırlayacağı hesabatın obyektiv və ədalətli olmasına çalışacağını bildirib. O, bu məruzənin humanitar məqsədlər daşıyan sənəd olacağını vurğulayıb. Məruzəçi ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşlər barədə də danışıb və bu görüşlərdə aparılan fikir mübadiləsini müsbət qiymətləndirib.

Pol Qavan Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığını yüksək qiymətləndirərək vurğulayıb ki, ölkəmizin öz öhdəliklərinə münasibəti və icrası təqdirəlayiqdir. O, bu görüşdə qaldırılan bir çox məsələlərin hesabatda əksini tapacağını da sözlərinə əlavə edib.

Görüşdə həmçinin Milli Məclislə AŞ PA arasında münasibətlərə dair də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov AK Parti sədrinin birinci müavini Numan Kurtulmuşun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb



İyulun 26-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizdə səfərdə olan Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin birinci müavini Numan Kurtulmuşun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Tahir Budaqov Azərbaycan-Türkiyə münasibətlərinin keyfiyyətcə yeni müstəviyə yüksəldiyini bildirib. Bu münasibətlərin hərtərəfli inkişafı hər iki ölkənin prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın yüksək səylərinin nəticəsidir. Azərbaycanla Türkiyə arasında əlaqələrin əhəmiyyətindən danışan YAP Sədrinin müavini qarşılıqlı münasibətlərin Ümummilli Liderimiz Heydər Əliyevin dediyi "Bir millət, iki dövlət" fəlsəfəsi əsasında inkişaf etdiyini vurğulayıb. Onun sözlərinə görə, bu gün iki dövlətin münasibətləri strateji tərəfdaşlıq səviyyəsindən qardaşlıq münasibətlərinə yüksəlib: "Prezidentimiz İlham Əliyevin vurğuladığı kimi, dünyada Azərbaycan-Türkiyə qədər bir-birinə yaxın, qardaş ölkə yoxdur. Biz siyasi partiyalar olaraq dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələrimizi daha da gücləndirməyi, inkişaf etdirməyi qarşıya məqsəd qoymuşuq. Bu ilin iyun ayında YAP nümayəndə heyətinin Ankaraya səfəri zamanı əməkdaşlığa dair niyyət protokolu imzalandı. Bu sənəddə nəzərdə tutulan məsələlərin reallaşması üçün bundan sonra fəaliyyətimizi daha da gücləndirəcəyik".

Tahir Budaqov bu gün AK Partinin nümayəndə heyətinin Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevlə görüşdüyünü bildirib və qeyd edib ki, dövlətimizin başçısı görüş zamanı partiyalar arasında əlaqələrin inkişafı ilə bağlı tövsiyələrini verib. Eyni zamanda Milli Məclisin Sədri Sahibə Qafarova ilə keçirilən görüş parlamentlərarası əlaqələrin inkişafı baxımından önəm kəsb edir.

YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, əməkdaşlıq haqqında niyyət protokolundan irəli gələrək YAP və AK Parti arasında əlaqələrin, o cümlədən qarşılıqlı səfərlərin intensivləşdirilməsi nəzərdə tutulur. Bu baxımdan gənclər və qadınlar arasında əməkdaşlığın genişləndirilməsi, qeyri-hökumət təşkilatları arasında əlaqələrin inkişafına dəstək verilməsi, partiyaların beynəlxalq platformalarda ortaq mövqedən çıxış etməsi və digər məsələlər xüsusi vurğulanmalıdır. Tahir Budaqov iyulun 28-də YAP-ın və AK Partinin Gəncə şəhərində "Şuşa Bəyannaməsi: Milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzusunda birgə konfrans keçirəcəyini diqqətə çatdırıb. Azərbaycanla Türkiyənin beynəlxalq müstəvidə də bir-birinə hər zaman ciddi dəstək verdiyini deyən Tahir Budaqov qeyd edib ki, istər 44 günlük Vətən müharibəsi zamanı, istərsə də postmüharibə mərhələsində qardaş Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasına qətiyyətli, birmənalı mənəvi-siyasi dəstək göstərməsi qürurverici haldır. Xalqlarımız və dövlətlərimiz bir daha sübuta yetirdilər ki, dostluq, qardaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri yeni dünya düzəni üçün parlaq nümunədir.

AK Parti sədrinin birinci müavini Numan Kurtulmuş göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. "Azərbaycanda özümüzü evimizdəki kimi hiss edirik", - deyən Numan Kurtulmuş hər iki partiya arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, pandemiya şəraitində partiyalarımız üç onlayn konfrans keçirib. İyun ayında isə YAP nümayəndə heyəti Türkiyədə səfərdə olub, səfər zamanı Prezident Rəcəb Tayyib Ərdoğan nümayəndə heyəti ilə görüşüb.

Azərbaycana səfər proqramından bəhs edən AK Parti sədrinin birinci müavini Azərbaycan Prezidenti ilə görüşü xüsusilə məhsuldar və faydalı hesab etdiklərini deyib. Bildirilib ki, hər iki partiya konkret layihələr üzərində işləyir və bu layihələrin gerçəkləşməsi üçün lazımi addımlar atılmaqdadır: "Münasibətlərini bundan sonra daha da gücləndirmək zəhmət və əmək tələb edir. Bu baxımdan siyasi partiyalar olaraq öz niyyətimizi ortaya qoymuşuq. Partiyalarımız əlaqələrini gücləndirməklə bütövlükdə dövlətlər arasında münasibətlərin inkişafına töhfə vermək niyyətini ifadə edirlər. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" olaraq milli, dini, mədəni, tarixi köklərə əsaslanan əlaqələrimizi gələcəyə daşımaq bizlərin ümdə vəzifələrindən biridir".

Numan Kurtulmuş qeyd edib ki, Prezident İlham Əliyevin qətiyyəti, Azərbaycan xalqının cəsarəti ilə yenilməz Azərbaycan Ordusu Qarabağı işğaldan azad etdi. Azərbaycan şanlı Zəfəri ilə bütün region üçün məqbul ola biləcək əməkdaşlıq formatı yaradıb və xoşməramlı mövqeyini bütün dünyaya bəyan edib. Türkiyə bundan sonra da hər zaman Azərbaycanın yanında olacaq.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonra qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.



# Dost və qardaşlığın real təcəssümü

## Azərbaycan-Türkiyə əlaqələri bu gün yüksələn xətlə inkişaf etməkdədir

İyulun 26-da Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuşun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, parlamentin Sədri qonaqları səmimi salamlayaraq, Azərbaycanla Türkiyənin dost və qardaş ölkələr olduğunu vurğulayıb. Sahibə Qafarova deyib ki, xalqlarımız öz tarixlərinin ən çətin dönəmlərində bir-birilərinə həmişə dəstək nümayiş etdiriblər. Onun sözlərinə görə, Azərbaycan və Türkiyə arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətləri Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, "Bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanır.

Görüşdə Sahibə Qafarova söyləyib ki, tarixi dostluq, strateji tərəfdaşlıq əsasında qurulan əlaqələrimiz bu gün yüksələn xətlə inkişaf etməkdədir. Dövlət başçıları arasında mövcud olan yüksəksəviyyəli münasibətlər, mütəmadi təmaslar əlaqələrimizin daha da genişlənməsinə və inkişafına xidmət edir. Azərbaycan Prezidentinin müxtəlif beynəlxalq tədbirlərdə qardaş ölkəyə həmişə birmənalı dəstək verməsi, Vətən müharibəsi dönəmində Türkiyə dövlətinin və onun Prezidentinin ölkəmizə göstərdiyi mənəvi və siyasi dəstək bunun bariz sübutudur.

Spiker daha sonra hər iki ölkənin hakim partiyaları - YAP və AKP arasında münasibətlərə toxunaraq deyib ki, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əlaqələr ölkələrimiz arasında münasibətlərin inkişafına da əsaslı töhfələr verir.

Sahibə Qafarova Azərbaycanın və Türkiyənin qanunvericilik orqanları arasında da əlaqələrin daim inkişaf etdiyini vurğulayaraq, Milli Məclisin fəaliyyəti, ölkəmizdə yeni siyasi konfiqurasiyada parlamentdə həyata keçirilən islahatlar barədə qonaqlara ətraflı məlumat verib.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuş ölkəmizə səfərlərindən və burada keçirilən görüşlərdən məmnun qaldıqlarını söyləyib. Qonaq 44 günlük Vətən müharibəsi dönəmində Azərbaycanın qazandığı tarixi Zəfər münasibətilə təbriklərini çatdırıb. Bildirilib ki, 30 il ərzində erməni işğalına göz yuman beynəlxalq qurumlar problemin həlli istiqamətində konkret addımlar atmayıb. Azərbaycan öz gücü ilə torpaqlarını Ermənistanın işğalından azad edib. Bu Zəfər təkcə azərbaycanlıları deyil, onların türkiyəli dostlarını da qəlbən sevindirib.

Qonaq təmsil etdiyi partiyanın YAP-la əlaqələrindən söz açaraq tərəflərin birgə həyata keçirdikləri layihələrdən danışıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da danışılıb.

***"Azərbaycan"***

# Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 26-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi də yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və görkəmli həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri qoyulub. Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyublar.





Qonaqlar həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Nümayəndə heyətinin rəhbəri Numan Kurtulmuş "Türk şəhidliyi" abidəsinin xatirə kitabına ürək sözlərini yazıb.

# *Numan KURTULMUŞ:* "Azərbaycanla Türkiyənin münasibətləri yüksək səviyyədədir"

"Azərbaycanla Türkiyənin münasibətləri yüksək səviyyədədir. Hər iki ölkənin hakim partiyaları olan AK Parti və YAP arasında əlaqələr də çoxşaxəlidir və səfərimiz bunu bir daha təsdiqləyir. Biz Azərbaycana səfərimizin ilk günündəyik. İlk olaraq Ulu Öndər Heydər Əliyevin məzarını, Azərbaycanın istiqlalı uğrunda canlarını qurban vermiş azərbaycanlı şəhidlərin məzarını ziyarət etdik. Eyni zamanda 1918-ci ildə Bakının işğaldan azad edilməsi uğrunda döyüşən azərbaycanlı qardaşlarımıza yardım edən, bu yolda canlarını qurban vermiş Qafqaz İslam Ordusunun əsgərlərinin şərəfinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət etdik. Bütün şəhidlərimizi rəhmətlə, şükranlıqla anırıq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyasının dəvəti ilə ölkəmizdə səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) nümayəndə heyətinin rəhbəri, AK Parti sədrinin birinci müavini Numan Kurtulmuş jurnalistlərə müsahibəsində söyləyib.



Türkiyə ilə Azərbaycan arasındakı mükəmməl münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Numan Kurtulmuş bildirib: "Xüsusilə 44 günlük İkinci Qarabağ savaşında Türkiyə dövləti və xalqı bütün gücü, imkanları ilə azərbaycanlı qardaşlarının yanında yer aldı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilk andan bu dəstəyi ifadə etdi, Türkiyə Azərbaycanın erməni işğalına son qoyulması mübarizəsinə dəstək oldu. Allahın izni ilə Prezident İlham Əliyevin qətiyyətli, qərarlı duruşu ilə, azərbaycanlı qardaşlarımızın cəsarəti ilə uzun illər davan edən işğal sona çatdı, Qarabağ azadlığına qovuşdu. Bu münasibətlə Azərbaycan xalqını bir daha təbrik edir, şəhidləri böyük ehtiramla yad edirəm".

Onun sözlərinə görə, iki ölkə arasındakı sıx münasibətlər hakim YAP və AK Parti əlaqələrinin gücləndirilməsini də zəruri edir. "Pandemiya şərtlərinə rəğmən, iki partiya arasında çox sıx əməkdaşlıq gerçəkləşib. Daha əvvəl onlayn konfranslar keçirmişik. Ən son konfransımız Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuşdu. Həmin onlayn konfransda ABŞ-da uydurma "erməni soyqırımı"nın gündəmə gəlməsi, İkinci Qarabağ savaşından sonra bölgədəki vəziyyəti müzakirə etdik. Çox böyük və geniş müzakirə apardığımız bir konfrans oldu. Ardınca isə YAP Sədrinin müavini Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Türkiyəyə səfər etdi. Biz də bu səfərimiz zamanı bu gün rəsmi görüşlərimizi keçirəcəyik. Sabah günortadan sonra Gəncəyə səfər edəcəyik. Çərşənbə günü isə Gəncədə üz-üzə konfrans keçirəcəyik. Konfransın mövzusu da ortaq mədəni dəyərlər üzərindən iki ölkənin daha da bir-birinə yaxınlaşması imkanları ilə bağlı olacaq. Dil, din, tarix, mədəniyyət kimi təməl ortaq dəyərlərimizlə Azərbaycanla Türkiyə arasında "Tək millət, iki dövlət" olaraq var olan bu qərarlılığımızı bir daha nümayiş etdirəcəyik", - deyə o qeyd edib.

AK Parti sədrinin birinci müavini vurğulayıb: "Biz Azərbaycana böyük nümayəndə heyəti ilə gəlmişik. İki partiya arasında səmimi əlaqələri daha da zənginləşdirəcəyimizə, gücləndirəcəyimizə inanırıq. Bu, hər iki dövlət üçün də xeyirli olacaq. Xüsusilə bundan sonrakı dönəmdə Qarabağın, regionun sülh və əməkdaşlıq bölgəsi olması üçün səylərimizi daha da gücləndirəcəyik".

# "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 597; 2020, № 6, maddə 683, № 7, maddə 856, № 12 (I kitab), maddə 1442) aşağıdakı dəyişikliklər edilsin:

1. 11.1-ci maddədə "hüquqi şəxsdir" sözləri "qeyri-kommersiya hüquqi şəxsidir" sözləri ilə əvəz edilsin.

2. 21.10-cu və 29.4-cü maddələr ləğv edilsin.

3. 26.5-ci maddədə "Tərəflər" sözü "Mediator" sözü ilə, "borcludurlar" sözü "borcludur" sözü ilə əvəz edilsin.

4. 28.4-cü maddədə "mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə" sözləri "Mediasiya Şurası" sözləri ilə əvəz edilsin.

5. 31-ci maddə üzrə:

5.1. 31.1-ci və 31.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"31.1. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.";

"31.4. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə barışıq sazişi məhkəməyə təqdim olunur. Məhkəmə təqdim edilmiş barışıq sazişini təsdiq etdikdə həmin iş üzrə icraata xitam verilir.";

5.2. 31.5-ci maddədən "və bu Qanuna uyğun olaraq barışıq sazişinin əldə edilməsi əsasında icraata xitam verilən məhkəmə işlərinin sayı" sözləri çıxarılsın.

6. 33.3-cü maddədə "qüvvədə olan qanunvericiliyə" sözləri "qanuna" sözü ilə əvəz edilsin.

7. 34.3-cü maddədən "və ya notariusa" sözləri və 34.4-cü maddədən "və ya notarius" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 3 mart tarixli 391 nömrəli, "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında" 2017-ci il 26 yanvar tarixli 1217 nömrəli, "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 5 sentyabr tarixli 1588 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli fərmanlarında və "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində çalışan işçilərin aylıq əməkhaqlarının təkmilləşdirilməsi haqqında" 2012-ci il 25 sentyabr tarixli 2462 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172; 2012, № 2, maddə 68, № 5, maddə 426, № 9, maddə 851, № 12, maddə 1248; 2013, № 9, maddə 1063; 2014, № 9, maddə 1033; 2016, № 2 (II kitab), maddə 236; 2017, № 3, maddə 383, № 10, maddə 1782, № 11, maddə 2022; 2018, № 5, maddə 971; 2019, № 3, maddə 395; 2020, № 1, maddə 12, № 10, maddə 1246, № 11, maddə 1363) ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nın 4.11-ci və 5.3-cü bəndlərindən "fəaliyyət göstərən səfirlik və konsulluqlarında" sözləri çıxarılsın.

2. "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 26 yanvar tarixli 1217 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 64) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adından "fəaliyyət göstərən səfirlik və konsulluqlarında" sözləri çıxarılsın;

2.2. 1-ci hissədən "fəaliyyət göstərən səfirlik və konsulluqlarında" sözləri çıxarılsın və həmin hissədə "nümayəndələri" sözü "nümayəndələrini" sözü ilə əvəz edilsin;

2.3. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. ticarət nümayəndəsi Azərbaycan Respublikasının səfirlik və ya konsulluğunun mövcud olduğu ölkələrdə müvafiq səfirlik və ya konsulluqda təyin olunur və öz funksiyalarını təyin olunduğu səfirlik və ya konsulluğun tərkibində həyata keçirir, Azərbaycan Respublikasının səfirlik və ya konsulluğunun mövcud olmadığı ölkələrdə isə ayrıca fəaliyyət göstərir;".

3. "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 sentyabr tarixli 1588 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1635) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adından və 1-ci hissədən "fəaliyyət göstərən səfirlik və konsulluqlarında" sözləri çıxarılsın;

3.2. 2.2-ci bəndə "təyin olunduğu" sözlərindən sonra "ölkə," sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1590) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturu"nun 6-cı hissəsindən "fəaliyyət göstərən səfirlik və konsulluqlarında" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954; 2020, № 5, maddə 542, № 7, maddə 862, № 9, maddə 1151) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.65-ci, 5.5.6-cı, 5.5.7-ci və 5.5.8-ci yarımbəndlərindən "fəaliyyət göstərən səfirlik və konsulluqlarında" sözləri çıxarılsın.

6. "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində çalışan işçilərin aylıq əməkhaqlarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 25 sentyabr tarixli 2462 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 913; 2013, № 7, maddə 847, № 8, maddə 983; 2014, № 11, maddə 1492; 2015, № 7, maddə 866; 2017, № 11, maddə 2097; 2019, № 11, maddə 1849) 2-ci hissəsindən "fəaliyyət göstərən səfirlik və konsulluqlarında" sözləri çıxarılsın.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. 2021-ci ildə təyin olunacaq ticarət nümayəndələri aparatlarının fəaliyyətinin təminatı ilə bağlı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin Ehtiyat Fondundan müvafiq məbləğdə əlavə vəsaitin ayrılmasını təmin etsin;

7.2. "Dövlət qulluğu haqqında", "Diplomatik xidmət haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilməsi ilə bağlı qanun layihələrini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.3. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405; 2020, № 4, maddə 423, № 6, maddə 708; 2021, № 2, maddələr 121, 133) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1.5-ci yarımbəndin 1-ci abzasına ikinci halda "sektor müdiri," sözlərindən sonra "baş mühasib," sözləri əlavə edilsin.

2. 2.1.6-cı yarımbəndin 11-ci abzası ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

# "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanununun 2021-ci il oktyabrın 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045; 2017, № 3, maddə 352, № 4, maddə 551, № 8, maddə 1517, № 11, maddə 2261; 2019, № 6, maddə 1030, № 12, maddə 1931; 2020-ci il, № 11, maddə 1358) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddə "355-5.1-ci maddəsində" sözləri "150.2-ci və 355-5.1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.2. 2.4-cü bənddən ", 339.1-ci, 341-ci" sözləri çıxarılsın;

1.3. 2.11-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

"2.12. həmin Məcəllənin 150.2-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanunu ilə həmin Məcəlləyə Ali Məhkəmədə işlərə baxılma qaydası ilə bağlı edilmiş dəyişiklikləri nəzərə alaraq və "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanında nəzərdə tutulmuş məqsədləri rəhbər tutaraq, Azərbaycan Respublikası Ali Məhkəməsinin fəaliyyətinin hüquqi, təşkilati və informasiya təminatını daha səmərəli şəkildə təşkil etmək üçün Ali Məhkəmənin Aparatının strukturunu yenidən müəyyən etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. mülki məhkəmə icraatında vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərin maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə onlara dövlət hesabına peşəkar hüquqi yardım göstərilməsi imkanlarının genişləndirilməsi ilə bağlı qanunvericilik aktlarında dəyişiklik edilməsinə dair təklifləri üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 363-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2021-ci il*

# "Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinin 5-ci hissəsinə əsasən **qərara alıram:**

1. "Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2021-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinin 5-ci hissəsinə əsasən hazırlanmışdır və həmin maddənin 4-cü hissəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən (bundan sonra - vəsait) istifadə qaydasını müəyyən edir.

1.2. Vəsaitdən prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə istifadə olunur.

### 2. Vəsaitdən istifadə edilməsi

2.1. Vəsaitin toplanması və ondan təyinatı üzrə istifadə edilməsi Azərbaycan Respublikası Baş Prokurorluğunun bu məqsədlə açılmış müvafiq xəzinə hesabı vasitəsilə həyata keçirilir.

2.2. Vəsaitin uçotu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi uçot qaydalarına uyğun həyata keçirilir.

2.3. Köçürmələrin və bununla əlaqədar nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təmin olunur.

2.4. Azərbaycan Respublikasının Baş Prokurorluğu vəsaitdən istifadəyə dair Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müvafiq hesabat təqdim edir.

2.5. Vəsaitdən istifadə ilə bağlı digər məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında müvafiq Əsasnaməyə uyğun olaraq həyata keçirilir.

2.6. Vəsait Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur, Azərbaycan Respublikası Baş Prokurorluğunun sərəncamındadır və onun istifadəçisi (sərəncamçısı) dəyişdirilə bilməz.

2.7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi hər ay üçün növbəti ayın 5-dən gec olmayaraq, dekabr ayı üçün isə həmin ayın 25-dək daxil olan vəsaitin dekabrın 26-da (dekabrın 26-sı qeyri-iş gününə düşdükdə, növbəti iş günü) Azərbaycan Respublikası Baş Prokurorluğunun xüsusi xəzinə hesabına köçürülməsini təmin edir.

### 3. Vəsaitdən istifadə istiqamətləri

3.1. Vəsaitin prokurorluq işçilərinin (bundan sonra - işçilər) sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən hissəsi aşağıdakı istiqamətlərə xərclənir:

3.1.1. işçilərin kollektiv və fərdi qaydada mükafatlandırılmasına;

3.1.2. bütün işçilərin vəzifə maaşlarına əlavələrin verilməsinə;

3.1.3. işçilər üçün kooperativ mənzil tikintisinin qismən maliyyələşdirilməsinə.

3.2. Prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə vəsait aşağıdakı istiqamətlərə xərclənir:

3.2.1. malların (işlərin və xidmətlərin) alınmasına;

3.2.2. inzibati və təsərrüfat təyinatlı binaların tikintisinə, onların əsaslı və cari təmirinə;

3.2.3. beynəlxalq təşkilatlara üzvlük və beynəlxalq tədbirlərdə iştirak haqlarının ödənilməsinə;

3.2.4. Azərbaycan Respublikası Baş Prokurorluğunun internet informasiya ehtiyatlarına, habelə "Elektron prokurorluq" informasiya sisteminə maliyyə yardımının ayrılmasına;

3.2.5. maddi-texniki bazanın möhkəmləndirilməsi və elmi-texniki potensialın artırılması istiqamətində digər xərclərə.

3.3. Vəsaitin 50 faizi bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərində nəzərdə tutulmuş məqsədlər üçün ayrılır.

3.4. Verilən mükafatların məbləğini işçinin fəaliyyətinin nəticələrindən asılı olaraq Azərbaycan Respublikasının Baş prokuroru müəyyən edir.

3.5. Bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərinə əsasən ödənilən vəsaitdən gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı və icbari tibbi sığorta haqqı müvafiq olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, "Sosial sığorta haqqında", "İşsizlikdən sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tutulur.

### 4. Keçid müddəası

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 aprel tarixli 307-VIQD nömrəli Qanununun 2-ci maddəsinə əsasən, 2020-ci il iyulun 1-dən bu Qayda qüvvəyə minənədək daxil olan vəsaitdən bu Qaydanın 3.2-ci bəndinə uyğun olaraq istifadə edilir.

# "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında pilotaj təlimi Sazişi"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il mayın 31-də Konya şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında pilotaj təlimi Sazişi" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2021-ci il*

# "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Bolqarıstan Respublikasının Müdafiə Nazirliyi arasında hərbi təhsil və treninq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Bolqarıstan Respublikasının Müdafiə Nazirliyi arasında hərbi təhsil və treninq sahəsində əməkdaşlıq haqqında" 2021-ci il martın 11-də Sofiya şəhərində və mayın 19-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Bolqarıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2021-ci il*

# Azərbaycanın və Serbiyanın xarici işlər nazirlərinin görüşü olub

İyulun 26-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Serbiyanın xarici işlər naziri Nikola Selakoviçlə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər arasında təkbətək formatda başlayan görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Görüşdə Azərbaycan ilə Serbiya arasında dostluq və strateji tərəfdaşlıq gündəliyinə daxil olan məsələlər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın Serbiya ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib. O, ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoqun, xüsusilə də dövlət rəhbərləri arasındakı mehriban münasibətlərin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını vurğulayıb. Azərbaycan-Serbiya münasibətlərinin təməlində beynəlxalq hüququn prinsiplərinə, xüsusilə də suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət və riayətin dayandığı diqqətə çatdırılıb.

Nikola Selakoviç Azərbaycanı yalnız strateji tərəfdaş deyil, səmimi və açıq dostluq münasibətlərinin bölüşüldüyü ölkə kimi qiymətləndirib.

O, Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilmiş görüşə və aparılmış



müzakirələrə məmnunluqla istinad edib. Nazir beynəlxalq hüquqla bağlı öhdəliklərimizi və bölüşdüyümüz dəyərləri qeyd edərək, hər iki ölkənin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə dəstəyini vurğulayıb.

Nazirlər ölkələr arasında iqtisadiyyat, ticarət, nəqliyyat, enerji, humanitar, turizm və digər sahələrdə əməkdaşlığın perspektivlərini müzakirə ediblər. Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclasının, onun ardınca isə Azərbaycan-Serbiya biznes forumunun Bakıda keçiriləcəyi qeyd olunub. Bu tədbirlərin ölkələrimiz arasında iqtisadi və ticarət əlaqələrinin daha da möhkəmlənməsinə xidmət göstərəcəyindən inam ifadə edilib.

Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan postmünaqişə mərhələsi barədə, o cümlədən azad edilmiş ərazilərdəki vəziyyət, mina təhlükəsi, həyata keçirilən bərpa və yenidənqurma prosesi haqqında məlumat verib. Bölgədə sülh və təhlükəsizliyin təmin olunması üçün imzalanmış üçtərəfli bəyanatların tam icrasının zəruriliyini bildirib.

Nazirlər Qoşulmama Hərəkatının 60 illiyi münasibətilə bu ilin oktyabrında Belqradda təşkilatın ilk Zirvə görüşünə evsahibliyi edən ölkə qismində Serbiya hərəkatın hazırkı sədri qismində Azərbaycan tərəfindən tədbirin keçiriləcəyini və bu xüsusda aparılan hazırlıq işlərini məmnunluqla qeyd ediblər.

## *Nazir Ceyhun BAYRAMOV:* "Azərbaycanla Serbiya arasında ticarət dövriyyəsində artım müşahidə edilir"

Ölkələrimiz arasında ticarət dövriyyəsində artım müşahidə edilir. Azərbaycanla Serbiya arasında münasibətlərin inkişafı bundan sonra da davam etdiriləcək. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov serbiyalı həmkarı Nikola Selakoviçlə keçirdiyi birgə mətbuat konfransında deyib.

Görüşdə ticarət dövriyyəsinin bundan sonra da artırılması istiqamətində müzakirələrin aparıldığını qeyd edən nazir bildirib ki, iyulun 27-də Azərbaycan ilə Serbiya arasında Hökumətlərarası Komissiyanın iclası olacaq, daha sonra isə biznes forum keçiriləcək.

"Ölkəmiz torpaqlarını işğaldan azad edəndən sonra bölgədə yeni vəziyyət yaranıb, həmin ərazilərin bərpası ilə bağlı böyük işlər həyata keçirilir. Bu istiqamətdə də müzakirələr apardıq. Eyni zamanda iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu", - deyə Ceyhun Bayramov vurğulayıb.

Nazir qeyd edib ki, Azərbaycan regionda dayanıqlı sülhün və əmin-amanlığın təmin edilməsi üçün lazımi işləri görür, sülh müqaviləsi ilə bağlı zəruri addımlar atır. Ancaq təəssüflər olsun ki, Ermənistan tərəfi bu məsələdə konstruktiv mövqe nümayiş etdirmir. Ermənistan Azərbaycanın xoşməramlı məramına qarşılıqlı münasibət göstərmir. Bu yanaşma regionda sülh və tərəqqiyə zərbə vuran addımdır. Hər kəs başa düşməlidir ki, dayanıqlı sülh üçün yeni "ixtiralara" ehtiyac yoxdur. Yaranmış vəziyyətdən düzgün istifadə etməklə, beynəlxalq qanunlara əməl etməklə regionda dayanıqlı sülhü bərqərar etmək mümkündür.

## *Nikola SELAKOVİÇ:* "Serbiya Azərbaycanın, Azərbaycan da Serbiyanın ərazi bütövlüyünü dəstəkləyir"

"Serbiya və Azərbaycan bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir və ona hörmət edir. Azərbaycan Serbiyanın vacib strateji tərəfdaşıdır. Bu görüş imkan verdi ki, biz əməkdaşlıq imkanlarını müzakirə edək. Biz iki ölkə arasında hər il siyasi dialoqların keçirilməsini təklif etdik".

AZƏRTAC xəbər verir ki, bunu Serbiyanın xarici işlər naziri Nikola Selakoviç azərbaycanlı həmkarı Ceyhun Bayramovla keçirdiyi birgə mətbuat konfransında deyib.

Təkbətək görüşdə iki ölkə arasında iqtisadi münasibətləri müzakirə etdiklərini vurğulayan N.Selakoviç deyib: "İqtisadi əməkdaşlıq sahəsində artım tendensiyası var. Bu ilin ilk beş ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə artım olub. Serbiyada həyata keçirilən infrastruktur layihələrində Azərbaycan şirkətləri iştirak edirlər. Bizim ortaq dəyərlərimiz var. Bu, beynəlxalq hüquqda da əksini tapan ölkələrin ərazi bütövlüyünə və suverenliyinə hörmət və dəstəkdir. Serbiya Azərbaycanın, Azərbaycan da Serbiyanın ərazi bütövlüyünü dəstəkləyir. Biz beynəlxalq platformalarda bir-birimizə dəstək vermişik və bu dəstək davam edəcək".

İkitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu diqqətə çatdıran Serbiyanın xarici işlər naziri deyib ki, görüşdə Bakı ilə Belqrad arasında birbaşa hava reyslərinin açılması, viza liberallaşdırılması, turizm və iqtisadiyyat sahələrində mümkün imkanlar geniş müzakirə olunub.

# *Şahmar MÖVSÜMOV:* "Pandemiyadan çıxış yolumuz yalnız vaksinasiyadan asılıdır"

"2020-ci ildə başlamış pandemiya davam edir və bir çox ölkədə növbəti dalğa başlayıb. Azərbaycanda da yeni dalğanın başladığı görünür.

Ölkəmizdə 4 milyon yarım doza peyvənd vurulub və bu peyvəndlər tam təhlükəsizdir. Azərbaycanda vaksinasiyaya başlandığı gündən vəfat edənlərin 99 faizi peyvənd olunmamış insanlar olub. Bizim pandemiyadan çıxış yolumuz yalnız vaksinasiyadan asılıdır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın iyulun 26-da təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov deyib. Prezidentin köməkçisi qeyd edib ki, tibb, təhsil və elm müəssisələrində, bütün dövlət qurumlarında və xidmət sektorunda çalışanların 80 faizi sentyabrın 1-dək birinci doza, oktyabrın 1-dək isə ikinci




dozanı vurdurmalıdırlar. Hazırda bu prosesin operativ tətbiqi üçün "ASAN xidmət" tərəfindən proqram təminatı hazırlanıb. Bu proqram təminatı haqqında mərkəz tərəfindən əlavə açıqlama veriləcək.

# Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatı

Nazirlər Kabineti yanında Operativ Qərargah ölkəmizdə pandemiya ilə bağlı vəziyyət barədə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda deyilir: "Artıq bir ildən çoxdur ki, dünyanın üzləşdiyi COVID-19 pandemiyası davam etməkdədir. Epidemioloji vəziyyətin getdikcə gərginləşməsi bir sıra ölkələrdə, eləcə də Azərbaycanda sərt karantin tədbirlərinin yenidən tətbiq olunmasını şərtləndirə bilər.

Pandemiyadan yeganə çıxış yolu əhalidə virusa qarşı kollektiv immunitetin formalaşmasıdır. Kollektiv immunitetin qısa müddətdə və təhlükəsiz yolla formalaşması yalnız vaksinasiya ilə mümkündür.

Ölkədə kollektiv immunitetin formalaşması istiqamətində artıq bir sıra tədbirlər görülmüşdür. Azərbaycan vaksinləri əldə edən və əhalinin kütləvi vaksinasiyasına başlayan ilk ölkələr sırasında olmuşdur. Həmçinin COVID-19 pasportu tələb olunan iş və xidmət sahələri işçilərinin azı 80 faizinin COVID-19 pasportuna malik olması, habelə toy mərasimləri keçirilən məkanlara və idman obyektlərinə daxil olmaq istəyən şəxslərin sözügedən pasporta sahib olması mütləq tələb kimi müəyyən edilmişdir.

Həyata keçirilən tədbirlərin davamı olaraq, ölkə əhalisinin sağlamlığının qorunması və vaksinasiya prosesinin sürətləndirilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qərar qəbul edilib. Qərara əsasən, 2021-ci il 1 sentyabr tarixindən etibarən:

- dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının, habelə aşağıda qeyd olunan müəssisələrin işçilərinin (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) azı 80 faizinin COVID-19-a qarşı birinci doza, 1 oktyabr tarixindən etibarən isə ikinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatının olması tələb olunur:
  - çalışan işçi heyətin potensial xəstələrlə daimi təmasda olduqları nəzərə alınaraq, mülkiyyət formasından asılı olmayaraq bütün tibb və əczaçılıq müəssisələri;
  - əyani dərslərin davamlı və təhlükəsiz bərpası məqsədilə mülkiyyət formasından asılı olmayaraq bütün elm və təhsil müəssisələri;
  - insanların sıx toplaşması və yoluxma riskinin yüksək olması nəzərə alınaraq, siyahısı müvafiq Qərarla təsdiq olunan iş və xidmət sahələrində fəaliyyət göstərən müəssisələr.

Ali və orta-ixtisas təhsili müəssisələrində təhsil alan yaşı 18-dən yuxarı olan şəxslər əyani dərslərə yalnız COVID-19 pasportuna malik olduqları halda buraxılacaqlar. Əlavə olaraq, yaşı 18-dən yuxarı olan şəxslər ictimai iaşə müəssisələrinin, mehmanxanaların və iri ticarət mərkəzlərinin qapalı məkanlarında göstərilən xidmətlərindən yalnız COVID-19 pasportu olduğu halda istifadə edə biləcəklər.

COVID-19 pasportlarının operativ verifikasiyasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən müvafiq tətbiqetmə artıq yaradılmış və qısa müddətdə istifadəyə veriləcək.

Tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə, sosial məsafənin qorunması və əl gigiyenası kimi ümumi qaydalara, habelə tətbiq edilən digər tələblərə riayət olunmasını təmin etmək məqsədilə müvafiq nəzarət tədbirlərinin icrasına davam ediləcək, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması aşkar edildiyi hallarda fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər".

# Nazirlər Kabineti "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Qərarda dəyişiklik edib

Nazirlər Kabineti "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" qərarda dəyişiklik edib.

AZƏRTAC Nazirlər Kabinetinə istinadla xəbər verir ki, 2021-ci il 1 sentyabr tarixindən etibarən dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının, habelə aşağıda qeyd olunan müəssisələrin işçilərinin (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) azı 80 faizinin COVID-19-a qarşı birinci doza, 1 oktyabr tarixindən etibarən isə ikinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatının olması tələb edilir:

1. mülkiyyət formasından asılı olmayaraq bütün tibb və əczaçılıq müəssisələri;
2. mülkiyyət formasından asılı olmayaraq bütün elm və təhsil müəssisələri;
3. bu Qərarın 2.4-cü bəndi nəzərə alınmaqla, bu Qərarın əlavəsində qeyd olunan iş və xidmət sahələrində fəaliyyət göstərən müəssisələr;

2.5-5.2. ali və orta-ixtisas təhsili müəssisəsində təhsil alan yaşı 18-dən yuxarı olan bütün şəxslərin COVID-19 pasportunun olması tələb edilir;

2.5-5.3. yaşı 18-dən yuxarı olan şəxslər aşağıdakı yerlərdə qapalı məkanda göstərilən xidmətlərdən yalnız COVID-19 pasportu olduğu halda istifadə edə bilərlər:

1. ictimai iaşə müəssisələrində;
2. mehmanxanalarda;
3. iri ticarət mərkəzlərində.".

# Casusluqda ittiham olunan iki erməni ilə bağlı cinayət işi üzrə məhkəmə iclası keçirilib

İyulun 26-da Bakı Ağır Cinayətlər Məhkəməsində casusluqda ittiham olunan ermənilər - Davtyan Davit Tiqrani və Gevorg Sujyanın cinayət işləri üzrə məhkəmə prosesinin hazırlıq iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Əli Məmmədovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslər Azərbaycan Respublikasının dövlət



sərhədini qanunsuz keçdiklərini bildiriblər.

Fasilədən sonra prosesdə Gevorg Sujyanın istintaqa verdiyi ifadə elan edilib. Sonra digər təqsirləndirilən şəxs Davit Davtyan sərbəst ifadə verib və onun istintaqa verdiyi ifadə elan olunub.

Bu cinayət işi üzrə növbəti məhkəmə iclası iyulun 28-nə təyin olunub.

Qeyd edək ki, Gevorg Sujyan və Davit Davtyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.2.1-ci, 276-cı, 279.1-ci və 318.2-ci maddələri ilə ittiham olunurlar.

# Qarabağın üzərindən «dağ» götürülüb

## İlham Əliyevin hərbi-diplomatik qələbəsi bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq formatının reallaşmasına zəmin yaradıb

*Əvvəli 1-ci səh.*

Barbar düşmən tərəfindən vəhşicəsinə dağıdılan tarixi, dini, mədəni abidələrimizin hamısı yenidən bərpa edilir, tikilir. İndi yurd-yuvasından didərgin düşən yüz minlərlə köçkün sevinclə böyük qayıdışa hazırlaşır.

Belə bir mərhələdə Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təxribatlar, qaldırdıqları qondarma iddialar isə onların hələ də torpaqlarımıza qarşı güddükləri məkrli niyyətdən əl çəkmədiklərinin bariz göstəricisidir.

Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlarla, tarixi ədalətlə barışmaq istəməyən, xarici havadarlarına sığınaraq 30 ildir torpaqlarımızı işğal altında saxlayan, hələ ondan da illər əvvəl yenə havadarları sayəsində əzəli yurdumuz Zəngəzura yiyələnmələrini beyinlərinə yerləşdirən işğalçı başqalarının yurd-yuvasına tamah salmaq iştahının eyforiyasından ayılmaq istəmir...

Prezident İlham Əliyev aylardır Ermənistanı yeni reallıqları qəbul etməyə çağırır və bəyan edir ki, artıq Dağlıq Qarabağ adlı ərazi yoxdur: "Əgər kimsə deyirsə ki, münaqişə həll olunmayıb, gəlsin desin, bunun həllini necə görür, nə həll olunmayıb? Əgər dırnaqarası Dağlıq Qarabağın statusundan söhbət gedirsə, mən demişəm, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur".

Prezident qətiyyətlə hər kəsə bəyan edir ki, artıq Dağlıq Qarabağ deyil, Qarabağ var, vəssalam!

İyulun 22-də Azərbaycan Televiziyasına müsahibəsi zamanı da Prezident bu məsələyə bir daha toxunaraq söylədi ki, bu, süni şəkildə Azərbaycanın içində daim bir münaqişə ocağı yaratmaq üçün sovet hökuməti tərəfindən ortalığa atılmış təxribat olub. Tarixi torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayətini yaradıb, Xankəndini oranın mərkəzi edib və cəllad Şaumyanın adını verməklə Azərbaycan xalqına qarşı çox mənfi bir addım atıblar. Bu, xalqımız üçün, həqiqətən də, təhqir idi. Bu gün isə tarixi ədalət bərpa edilib. Tarix hər şeyi yerinə qoyub.

### Çirkin erməni taktikası

Ermənilərin bu sərsəm iddiaları heç bir məntiqə sığmır. Eyni zamanda ötən ilin 10 noyabrında üçtərəfli Bəyanatı imzalayaraq faktiki olaraq kapitulyasiyaya qol qoyan Ermənistanın son zamanlar ordumuzun mövqelərini atəşə tutması məntiqi davranış deyil.

Bəs bu çirkin oyunların altında gizlənən nədir?

Ola bilməz ki, ermənilər 44 günlük Vətən müharibəsinin onlar üçün acı və bir o qədər ağrılı nəticələrini tez bir zamanda unuda bilsinlər. Reallıqda belə bir şey mümkün deyil...

Faktiki olaraq Ermənistanın hərbi potensialı məhv edilib, özünə gəlməsi qarşıdakı 30 ildə gözlənilmir və hələ ondan sonrakı mərhələdə də sual altındadır. Üstəlik də, iqtisadi çöküş yaşayan və digər ölkələrin ianələri ilə birtəhər başını girləyən, insan resursları baxımından əziyyət çəkən bu ölkənin hansısa qarşıdurmaya hazır olması, sadəcə, gülüş doğurur...

Görünür, ermənilər son çarə kimi yenə də hər zaman əl atdıqları çirkin taktikanı işə salmağa çalışır, Azərbaycana qarşı yalan iddilar qaldıraraq "qurban" obrazına bürünüb özlərinə yeni xarici havadarlar qazanmaq istəyirlər...

Amma onlar bu ağılsız hərəkətləri ilə, ölkəmizə qarşı təxribatlar törətməklə, sadəcə, özlərinin acı sonlarını hazırlayırlar. Azərbaycan hər nə qədər sülhsevər, barışıq meyilli bir ölkə olsa da, torpaqlarına göz dikən, xalqına qənim kəsilən vəhşi xislətlilərə qarşı da bir o qədər barışmazdır.

Buna görə də ermənilər təxribatlarından əl çəkərək məğlubiyyətləri ilə barışmalı, bütün regionda sülhə və sabitliyə mənfi təsir göstərən, vəziyyəti gərginləşdirən təxribatçı əməllərinə son qoymalıdırlar.

Əks təqdirdə bir dövlət kimi varlıqlarını şübhə altına almış olacaqlar...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Koronavirus pandemiyası ilə mübarizədə iştirak edənlərə cari ilin üç ayı üzrə 29.6 milyon manatdan artıq müddətli əlavə və mükafat ödənilib

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına və Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamlarına uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən 2021-ci ilin fevral, mart və aprel ayları ərzində yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinə iş vaxtına/saatına mütənasib olaraq 26.4 milyon manat, qeyri-tibb işçilərinə isə 3.2 milyon manat müddətli əlavə ödənilib.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl səhiyyə müəssisələrində çalışan tibb işçilərinə cari ilin fevral və aprel ayları üzrə iş vaxtına/saatına mütənasib olaraq 23 min manat məbləğində müddətli əlavə ödənilib. Yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanır.

Könüllülərə adambaşına aylıq 250 manat olmaq şərti ilə 26 min 500 manat məbləğində mükafat ödənilib. Bu məbləğdən əməkhaqqına dair tutulmalar hesablanmır.

Tibb və qeyri-tibb tibb işçilərinə, eləcə də könüllülərə qeyd edilən aylar üzrə ödənilən müddətli əlavə və mükafatların məbləği aşağıdakı kimidir:

| Aylar | Dövlət tibb müəssisələri üzrə | | Özəl tibb müəssisələri üzrə | Könüllülər üzrə | Cəmi |
|---|---|---|---|---|---|
| | Tibb işçiləri | Qeyri-tibb işçiləri | | | |
| Fevral | 5.8 milyon manat (7177 nəfərə) | 0.9 milyon manat (2013 nəfərə) | 7000 manat (1 nəfərə) | 12 000 manat (48 nəfərə) | **6.7 milyon 19 min manat** |
| Mart | 7.8 milyon manat (7859 nəfərə) | 1.1 milyon manat (2045 nəfərə) | - | 9500 manat (38 nəfərə) | **8.9 milyon 9.5 min manat** |
| Aprel | 12.8 milyon manat (10622 nəfərə) | 1.2 milyon manat (2226 nəfərə) | 16 000 manat (6 nəfərə) | 5000 manat (20 nəfərə) | **14 milyon 21 min manat** |

Qeyd olunmalıdır ki, dövlət tibb müəssisələri tərəfindən göndərilən siyahılara uyğun olaraq agentlik tərəfindən may ayı üzrə müddətli əlavələrin ödənilməsi davam edir.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 09 iyul tarixli 198 nömrəli Qərarına əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqqılarına müddətli əlavələrin ödənilməsi 2021-ci il avqustun 1-dək uzadılıb.

Xalq elçilərimiz

# Xalqa və dövlətçiliyə xidmətdə keçən ömür



Müdriklər "Xalq üçün yaşanan ömür əsl insan ömrüdür" demişlər. Buna görə də belə insanların həyatı çətin olmaqla yanaşı, maraqlı və şərəfli, başı isə həmişə el içində uca olur. Çünki onlar öz xoşbəxtliyini, səadətini vətəninə, xalqına ləyaqətlə xidmətdə görürlər. Bu xidməti yorulmadan, usanmadan yerinə yetirən, bütün ömrünü xalqının, millətinin tərəqqisinə sərf edən, dərin fikir və düşüncə sahibi olaraq zirvədən-zirvəyə yüksələn, hər yüksəlişdə milli və dövlət maraqlarını hər şeydən üstün tutan, Azərbaycanın sosial-iqtisadi inkişafında xüsusi xidmətləri olan Eldar Allahyar oğlu Quliyev məhz belə şəxsiyyətlərdəndir.

Tanınmış ictimai-siyasi xadim, görkəmli iqtisadçı alim, Milli Məclisin Hesablayıcı Komissiyasının sədri, Azərbaycan Ağsaqqallar Şurasının və Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı İdarə Heyətinin sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, iqtisad üzrə elmlər doktoru, professor Eldar Quliyevin 70 yaşı tamam olur.

Bulaq suyu öz ləzzətini, öz inci saflığını sızıb-süzülüb keçdiyi dağlardan aldığı kimi, insan da yaxşı cəhətlərini doğulduğu torpaqdan götürür. Bu mənada cəsarətlə deyə bilərik ki, sözünə və əməlinə bütöv olan professor Eldar Quliyev özündə olan müsbət xüsusiyyətlərinin mayasını gənc yaşlarından ta indiyə kimi məhz deputat seçildiyi bölgədən - Maştağa, Zabrat, Nardaran və Bilgəh kəndlərinin camaatından, oranın ağsaqqallarından və seçicilərindən tutub.

26 iyul 1951-ci ildə Bakı şəhərində anadan olan Eldar Quliyev 1968-ci ildə Bakı şəhər 187 saylı tam orta məktəbini bitirmiş, 1969-1973-cü illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (hazırda Azərbaycan Dövlət İqtisad Universiteti) təhsil alaraq iqtisadçı ixtisasına yiyələnmişdir. İnstitutu bitirdikdən sonra əmək fəaliyyətinə başlayan Eldar Quliyev şərəfli bir yol keçmişdir. Fitri istedadının nəticəsidir ki, o işlədiyi sistemdən asılı olmayaraq daim vəzifə pillələrində irəliyə doğru addımlamışdır. 1975-ci ildə hərbi xidmətini başa vurduqdan sonra Eldar Quliyev 1987-ci ilə qədər Respublika Ticarət Nazirliyi sistemində idarə rəisinin müavini və idarə rəisi kimi məsul vəzifələrdə çalışmışdır.

1987-ci ildə keçmiş Bakı Şəhər Partiya Komitəsinin təşəbbüsü ilə kooperasiya sisteminə işə keçən Eldar Quliyev bu sistemdə də işgüzarlığı, təşkilatçılığı, özünə və ətrafdakılara qarşı tələbkarlığı sayəsində son dərəcə səmərəli fəaliyyət göstərmiş, kollektivin dərin rəğbətini qazanmışdır. Kooperasiyanın ən böyük təşkilatlarından biri olan Bakı Şəhər İstehlak Cəmiyyətinin sədri kimi işə başlayan E.Quliyev tezliklə ölkə əhəmiyyətli bu təşkilatın işində dönüş yaratmış, respublikanın regionları ilə yanaşı, keçmiş Sovet İttifaqının müxtəlif bölgələri ilə yaratdığı səmərəli əməkdaşlıq hesabına paytaxt Bakı şəhəri əhalisinin keyfiyyətli məhsullarla təminatını yaxşılaşdırmağa, bazar qiymətlərinin əhəmiyyətli dərəcədə aşağı salınmasına nail olmuşdur. E.Quliyevin uğurlu fəaliyyəti diqqətdən kənarda qalmamış, o qısa müddətdə daha yüksək və məsul vəzifələrə irəli çəkilmişdir. Belə ki, o, 1990-cı ildə Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı ("Azərittifaq") İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyinat almışdır. Bu mötəbər təşkilatın ticarət, iqtisadiyyat, tədarük, xarici ticarət kimi müxtəlif sahələrinə rəhbərlik edən E.Quliyev həmin sahələrin fəaliyyətini yaxşılaşdırmaq üçün səy və bacarığını əsirgəməmiş, səriştəsi və gərgin əməyi sayəsində hər bir sahənin uğurlu inkişafını təmin etmişdir. Eldar Quliyevin təşkilatçılıq qabiliyyətini, kollektivi qarşıya qoyulan vəzifələrin icrası üçün səfərbərlik etmək bacarığını, kooperasiya sistemi ilə yanaşı, ölkə miqyasında yüksək nüfuzunu nəzərə alan kooperatorlar 1993-cü ildə onu Azərittifaqın İdarə Heyətinin sədri vəzifəsinə seçmişdilər. Kooperasiyanın ənənələrini ləyaqətlə davam etdirən, sistemin demokratik və şəffaf fəaliyyət göstərməsinə böyük diqqət göstərən Eldar Quliyev 2004-cü ilə qədər bu vəzifədə işləmiş, həmin ildə Milli Məclisin deputatı seçildikdən sonra isə halhazıra qədər ictimai əsaslarla təşkilata rəhbərlik etməkdə davam edir.

Həm "Azərittifaq"ın sədr müavini və sədri kimi, həm də Milli Məclisin Aqrar Siyasət Komitəsi sədrinin müavini kimi Eldar Quliyev tez-tez ölkə mətbuatında iqtisadiyyatın, xüsusən aqrar sahənin inkişafı barədə sanballı məqalələrlə çıxış etmiş, maraqlı təklifləri ilə mütəxəssislərin, ölkə ictimaiyyətinin və beynəlxalq elmi qurumların diqqətini cəlb etmişdir. E.Quliyevin böyük elmi potensiala malik olduğunu yüksək qiymətləndirən "Azərittifaq"ın İdarə Heyəti bu potensialdan səmərəli istifadə olunmasını məqsədəuyğun saymış, onun elmi mühitdə fəaliyyət göstərməsini lazım bilərək Azərbaycan Kooperasiya Universitetində pedaqoji işlə məşğul olmasını tövsiyə etmişdir. 2009-cu ildən bu universitetdə baş müəllim, kafedra müdiri kimi işləyən Eldar müəllim elmi tədqiqatlarla dərindən məşğul olmuş, 2010-cu ildə iqtisad üzrə fəlsəfə doktoru, 2014-cü ildə iqtisad üzrə elmlər doktoru dissertasiyalarını uğurla müdafiə etmiş, 2015-ci ildə professor elmi adına layiq görülmüşdür.

Universitetdə mövcud olan elmi mühit onun tədqiqatçılıq istedadının üzə çıxmasına, son dərəcə məhsuldar elmi fəaliyyətinə şərait yaratmışdır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur" deyimini özünə örnək götürən Eldar müəllimin müəllifi olduğu monoqrafiya, dərslik və dərs vəsaitləri iqtisad yönümlü ali məktəb müəllim və tələbələri, aqrar sənaye sferasında çalışan mütəxəssislər, ərzaq təhlükəsizliyi problemləri ilə məşğul olan elmi işçilərlə yanaşı, geniş oxucu kütləsi üçün də faydalı elmi vəsaitlərdir. Onun 2011-ci ildə nəşr olunan "Müasir dövrdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin xüsusiyyətləri", 2012-ci ildə nəşr olunan "Gömrük işinin təşkili", 2013-cü ildə işıq üzü görən "Etibarlı ərzaq təminatı sistemi: Kooperasiya və inteqrasiya problemləri", 2015-ci ildə dərc olunan "Aqrar iqtisadiyyat" adlı dərs vəsaitləri, eləcə də bir sıra keçmiş sovet respublikaları ilə yanaşı, ABŞ, Türkiyə, Almaniya və digər Avropa ölkələrində nəşr olunan çoxsaylı elmi məqalələri bu qəbildəndir.

2017-ci ilin mart ayında Almaniyanın nüfuzlu "Şpringer" nəşriyyatı tərəfindən ingilis dilində Eldar müəllimin "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar, perspektivlər" adlı sanballı monoqrafiyası nəşr olunmuşdur. Zəmanəmizin ən aktual problemlərindən birinə-bütün dünya ölkələri üçün böyük əhəmiyyət daşıyan ərzaq təhlükəsizliyi problemlərinə həsr olunan həmin kitab Ekspert Komitəsi tərəfindən BMT-nin İsveçrədə yerləşən Mərkəzi kitabxanasının fonduna qəbul edilmişdir. Həmin ilin noyabrında İtaliyanın Roma şəhərində bu monoqrafiyanın təqdimat mərasimi keçirilərkən əsərin dünyəvi əhəmiyyət daşıdığı qeyd edilərək BMT-nin İctimai Mükafatlar üzrə Şurası tərəfindən "İlin kitabı" mükafatı verilmiş, eyni zamanda, professor Eldar Quliyevə Vatikan Bonifasiana Akademiyasının həqiqi üzvü (akademik) diplomu təqdim olunmuşdur. Avropa Təbiət Elmləri Akademiyasının Rəyasət Heyəti 2019-cu il 19 fevral tarixli qərarı ilə Eldar müəllimi bu dəyərli tədqiqat əsərinə görə, "İlin alimi" adlı beynəlxalq mükafata layiq görmüş və "Eyler" medalı ilə təltif etmişdir.

Müasir dünyamızın daha bir aktual probleminə həsr olunan "Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri" və həmmüəlliflərindən biri olduğu "Kooperasiya hərəkatı: təkamülü, mövcud durumu və inkişaf meyilləri" adlı monoqrafiyaları da Eldar Quliyevin son illərdə apardığı elmi araşdırmaların nəticəsi olaraq ərsəyə gəlmişdir.

Son dərəcə məhsuldar elmi fəaliyyətinə görə professor Eldar Quliyev Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Almaniyanın Hannover şəhərində yerləşən Avropa Təbiət Elmləri Akademiyasının, İtaliya Beynəlxalq İqtisadi və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, Gürcüstan Respublikasının Suxişvili adına Texniki Universitetinin fəxri doktoru seçilmişdir. Vatikan Bonifasiana Akademiyasının həqiqi üzvü, Roma şəhərinin fəxri alimi, Avropanın Əməkdar elm xadimidir. O, görkəmli elmi nailiyyətlərinə görə müxtəlif illərdə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən "Qızıl Ulduz" və "Böyük Qızıl Ulduz" medallarına, "Atatürk Beynəlxalq Mükafatı"na, Birləşmiş Millətlər Təşkilatının Təltif Komitəsi tərəfindən "Taclı Xidmət" ordeninə və İctimai Mükafatlar Şurasının Beynəlxalq Mükafatlar Komitəsi (UNCOPA) tərəfindən "Avropa Xidmət Ordeni"nə, Avropa Təbiət Elmləri Akademiyası tərəfindən "Senator Ulduzu" və "Qızıl Qartal" ordenlərinə, "Eyler" medalı və Leybnis adına medala layiq görülmüşdür.

Professor Eldar Quliyev uzun müddətdir ki, iqtisad üzrə fəlsəfə və elmlər doktorları dissertasiyalarının müdafiəsini keçirən ixtisaslaşdırılmış şuraların təşkilatçısı və fəal üzvlərindən biridir. Onun elmi rəhbərliyi altında xeyli sayda gənc alimlər yetişmişdir. Hazırda 5 nəfər fəlsəfə doktoru və 2 nəfər elmlər doktoru elmi dərəcəsi almaq iddiasında olan dissertantların elmi rəhbəri və elmi məsləhətçisidir.

İdarəetmə elminin sirlərinə ustalıqla yiyələnmiş Eldar Quliyev ölkəmizin ictimai-siyasi həyatında mühüm xidmətləri olan şəxslərdəndir. O, İkinci, Üçüncü, Dördüncü, Beşinci və Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 2005-2020-ci illərdə Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini kimi fəaliyyət göstərən Eldar Quliyev hazırda Milli Məclisin Hesablayıcı Komissiyasına rəhbərlik edir. Ölkə həyatının ən aktual məsələlərinə aid qanun layihələrinin hazırlanmasında və onların müzakirələrində fəal istirak edən, sanballı təklifləri ilə qanunvericilik bazasının təkmilləşdirməyə səy göstərən E.Quliyev millət vəkili kimi seçiciləri ilə müntəzəm əlaqə saxlayır, onların qaldırdıqları problemlərin vaxtında və ədalətli şəkildə həll olunmasına həssaslıqla yanaşır.

Eldar Quliyev deputat kimi Azərbaycan parlamentini beynəlxalq arenada da ləyaqətlə təmsil edir. O, Azərbaycan-Niderland parlament dostluq qrupunun sədri olmaqla yanaşı, 5 xarici ölkə ilə dostluq qruplarının üzvüdür. 2011-ci ildə Türkdilli dövlətlərin parlamentlərinin fəxri millət vəkili seçilmiş, 2016-cı ildə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri təyin olunmuşdur. Assambleyanın işində fəal iştirakı ilə fərqlənən Eldar Quliyev 20 iyun 2019-cu il tarixdə Bakıda keçirilən toplantıda bu nüfuzlu beynəlxalq təşkilatın sədr müavini vəzifəsinə seçilmişdir.

Bütün bu mühüm qurumlarda gərgin və səmərəli fəaliyyəti ilə yanaşı Eldar müəllimin ictimai fəaliyyəti də diqqətəlayiqdir. O, Azərbaycan Ağsaqqallar Şurası kimi mötəbər təşkilatın 29 sentyabr 2020-ci il tarixdə keçirilən qurultayında bu qurumun sədri vəzifəsinə seçilmişdir. Burada qısa müddətli fəaliyyətində gördüyü işlərlə ölkə ictimaiyyətinin, xüsusən ahıl təbəqənin böyük rəğbətini qazanmışdır. Ağsaqqallar Şurasının işinə ölkəmizin görkəmli ziyalılarını, tanınmış ictimai-siyasi xadimlərini cəlb edərək bu təşkilata, sözün əsl mənasında, ikinci nəfəs vermişdir. Şuranın fəaliyyəti üçün hüquqi bazanı təkmilləşdirmək və möhkəmləndirmək məqsədilə yeni nizamnamə qəbul olunması, idarəetmə və nəzarət orqanlarının formalaşdırılması təmin olunmuşdur.

Əsas məqsədi Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin və tarixi ənənələrinin qorunmasına, ölkənin ictimai-siyasi, sosial-iqtisadi inkişafına, cəmiyyət həyatının aktual məsələlərinin həllinə ağsaqqalların töhfəsini təmin etməkdən ibarət olan şuranın yerli təşkilatlarının işini müasir tələblər səviyyəsinə qaldırmaq məqsədilə 2021-2023-cü illəri əhatə edən iş planının hazırlanması, bütün rayon və şəhərlərdə Ağsaqqallar Şuralarının konfransları keçirilərək onların hüquqi fəaliyyətinin əsaslarını təsbit edən Əsasnamələrinin qəbul olunması, çevik idarəetmə orqanlarının formalaşdırılması bilavasitə Eldar Quliyevin təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilmişdir. İnanırıq ki, Eldar Quliyevin müdrik və prinsipial rəhbərliyi altında Azərbaycan Ağsaqqallar Şurası vətənimizin inkişafı naminə aparılan işlərdə yaxından iştirak edəcək, qurum üzvlərinin zəngin həyat təcrübəsindən istifadə edərək əhalinin bütün təbəqələrinin ölkəmizin rəhbərliyi ətrafında daha sıx birləşməsini, gənclərin milli-mənəvi dəyərlərə hörmət və vətənpərvərlik ruhunda tərbiyə olunması sahəsində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Eldar Quliyevin xalqımız tərəfindən yüksək dəyərləndirilən ictimai-siyasi fəaliyyəti ölkə rəhbərliyi tərəfindən də layiqincə qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev onu 2011-ci ildə "Şöhrət" ordeni ilə, 2019-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə "Qızıl medal"la təltif etmişdir. Azərbaycan Respublikasının Milli Məclisi onu "Parlament" medalına, Xarici İşlər Nazirliyi yubiley medalına, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası "Şöhrət" medalına layiq görmüşdür.

Uca Tanrı hərəyə bir ömür payı verir. Millətinə, dövlətinə, kökünə, ailəsinə çox bağlı bir şəxsiyyət olan Eldar Quliyev də bu ömür payını ləyaqətlə yaşayır. Görkəmli Fransız şairi A.Lamartının "Həyatın mənası aramsız axtarışlardan ibarətdir" ifadəsini zəhmətkeş, gayğıkeş və prinsipial bir rəhbər, rahatlıq nə olduğunu bilməyən vətəndaş kimi professor E.Quliyevə də cəsarətlə şamil etmək olar. Vətəninə, xalqına yorulmadan xidmət göstərən, dövlətçilik tariximizi zənginləşdirən, bütün ömrünü xalqının, millətinin tərəqqisinə sərf edən professor Eldar Quliyev yaxşı dost, yüksək intelektə malik ziyalı, qayğıkeş ata, düzgün yol göstərən ağsaqqal, sözün geniş mənasında, insanlıq nümunəsidir.

Yorulmaq bilməyən, yüksək mədəniyyətə malik, özündə yüksək ziyalılığı sadəlik və insanlıq ilə ahəngdar şəkildə birləşdirən, nur üzlü, xoş sözlü bir insan, dost haqqını tapdalamayan, yaxşı adı, təmiz vicdanı hər şeydən üstün tutan şəxsiyyətdir Eldar Quliyev. Dahi Nizami Gəncəvi belə şəxsiyyətlərə xitabən yazmışdır: "Çalış öz elinin işinə yara, Dünya əməlinlə geysin zər-xara". Dünyada ən çətin iş - yaxşı ad qazanmaqdır. Eldar müəllim öz əzmkarlığı və zəhməti hesabına bu zirvəni də ləyaqətlə fəth etmişdir.

Həmkarları, dostları və yetirmələri ömrünün müdrik çağını, yaradıcılığının yetkinlik dövrünü yaşayan, şərəfli həyat yolunu nikbinliklə davam etdirən Eldar Allahyar oğlu Quliyevi 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, çoxşaxəli ictimai-siyasi və elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar diləyirlər.

*Biz bu yazını hazırlayarkən şad bir xəbərin sevincini yaşadıq. Eldar müəllimin saydıqca bitməyən titullarına çox yüksək bir mükafat da əlavə olundu. Cənab İlham Əliyevin müvafiq sərəncamı ilə respublikamızın ictimai-siyasi həyatındakı xidmətlərinə görə, Eldar Quliyev yubileyi münasibətilə ən yüksək mükafatlardan biri olan "Şərəf" ordeni ilə təltif edilmişdir. Biz Eldar müəllimin sevincinə qoşulur və möhtərəm cənab Prezidentimizə öz dərin təşəkkürümüzü bildiririk.*

***Ziyad SƏMƏDZADƏ,***
*AMEA-nın həqiqi üzvü, Milli Məclisin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri*

***Vahid NOVRUZOV,***
*Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor*

# "Azercell" Milli Olimpiya Komandasına uğurlar arzulayır!







İyul ayının 23-ü Tokio Olimpiadasının açılış mərasimi baş tutdu. Milli Olimpiya Komitəsinin və Milli Olimpiya Komandasının məğrur tərəfdaşı "Azercell Telekom" MMC idmançılarımızın yanında olmaqdan qürur duyur, bu mühüm və möhtəşəm tədbirdə onların hər birinə uğurlar diləyir.

Xatırladaq ki, 28 fevral 2020-ci il tarixində Azərbaycan Milli Olimpiya Komitəsi və "Azercell Telecom" MMC arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

"Tokio-2020" Yay Olimpiya Oyunları ötən il keçirilməli olsa da, pandemiya səbəbindən təxirə salındı. Bütün dünyanın diqqət mərkəzində olan bu oyunlarda çətin şərtlərə rəğmən, dayanmadan məşq edən və yüksək mübarizə əzmi nümayiş etdirən azərbaycanlı idmançılar ölkəmizi 44 nəfərlik heyətlə təmsil edəcəklər.

# AZAL-ın təyyarələri Qarabağ səmasında ilk dəfə radioçağırış siqnalları alıb

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, uzunmüddətli fasilədən sonra Qarabağ səmasında milli naviqasiya sistemlərinin radioçağırış siqnalları yenidən ötürülür. Bu siqnalları ilk dəfə Azərbaycan milli daşıyıcısının (AZAL) təyyarələri qəbul edib.

İndi azad edilmiş ərazilər üzərində uçan bütün hava gəmiləri Füzuli Beynəlxalq Hava Limanında quraşdırılan VOR/DME yerüstü naviqasiya sistemindən çağırış siqnalı ala bilər.

Bu radioçağırış siqnalları qeydiyyata alınaraq Avropa Hava Naviqasiyası Təhlükəsizliyi Təşkilatı (EUROCONTROL) tərəfindən təsdiq edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hava gəmilərinin uçuşlarının Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) standartlarına



uyğun olaraq aeronaviqasiya təminatı məqsədi ilə Füzulidəki Beynəlxalq Hava Limanında radiotexniki avadanlığın fəal tətbiqi həyata keçirilir. Radiolokasiya kompleksinin, alətlər üzrə enmə sisteminin quraşdırılması davam etdirilir, həmçinin aviasiya-meteoroloji təminat sistemlərinin yerləşdirilməsi başa çatdırılmışdır.

Qeyd etməliyik ki, Azərbaycan ICAO-nun üzvüdür və beynəlxalq mülki aviasiya haqqında konvensiyaya uyğun olaraq (həmçinin "Çikaqo Konvensiyası" kimi tanınır) beynəlxalq aeronaviqasiya sahəsində dövlət öhdəliklərinin yerinə yetirilməsini təmin edir.

Mülki aviasiya üçün əsas olan konvensiya dövlətin öz ərazisinin hava məkanı üzərində suverenliyini, habelə bu sənədin tələblərinə uyğun olaraq hər bir ölkə qarşısında hava məkanında beynəlxalq aeronaviqasiyanı təmin etmək öhdəliklərini müəyyən edir.

Azərbaycanın hava məkanında aeronaviqasiya xidmətini təmin etmək üçün Azərbaycanın uçuş məlumatları sahəsinin (UMS) sərhədləri ICAO Şurası tərəfindən müəyyən edilərək təsdiq olunmuşdur və ölkəmizin suveren sərhədlərinə tam uyğundur.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 07 may 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Lifsiz pambıq toxumunun emalı müəssisəsinin yaradılması layihəsi üzrə daxili bazar araşdırmasının aparılması ilə əlaqədar məsləhət xidmətinin satın alınması" ilə bağlı elektron satınalma vasitəsilə keçirilmiş açıq tender prosedurunun davamından "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 16 iyun 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsi ilə "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov" Elektrik Deposunda Elektrik Mühərriklərinin Əsaslı Təmir sexində, Əsas Suxaric Qurğuda, Vaqonların Təmir sexində Qumlama sahəsində ventilyasiya sistemi üçün avadanlıqların alınıb quraşdırılması işlərinin satın alınmasına dair keçirilmiş açıq tenderdə "TMS LTD" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilatla 19 527,82 manat (on doqquz min beş yüz iyirmi yeddi manat, 82 qəpik) ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı malların satın alınması məqsədilə tender elan edir

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin Əlavə 1-nə uyğun);*
- *Azərbaycan Respublikasının mövcüd qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 2 (iki) ay ərzində İcraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 16.08.2021-ci il saat 10:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 24.08.2021-ci il saat 10:00-dək Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 25.08.2021-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



# İşğaldan azad edilmiş ərazilərimiz Azərbaycan idmanının da əsas inkişaf mərkəzlərindən olacaq

İllərimi sərf etdiyim futbol həyatımda mühüm yer tutsa da, ölkəmizlə bağlı bütün prosesləri hər zaman diqqətlə izləyirəm. Bu fonda hər azərbaycanlı kimi indi məni yaxından maraqlandıran ən vacib hadisələrdən biri 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbədən sonra azad edilən ərazilərdə başlanan genişmiqyaslı abadlıq-quruculuq işləridir.

Bu abadlıq-quruculuq işləri azad olunmuş ərazilərə yeni nəfəs gətirəcək, Qarabağda və Şərqi Zəngəzurda yenidən həyat qaynayacaq. Digər sahələrlə yanaşı, bu yerlər Azərbaycan idmanının da əsas inkişaf məkanlarından birinə çevriləcək. Bütün bunların memarı isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

Vətən müharibəsində Azərbaycan xalqı dünyaya öz gücünü nümayiş etdirdi, bütün cahana səs salan "Dəmir yumruq" birliyi ilə haqq və ədaləti bərpa edərək möhtəşəm qələbənin müəllifinə çevrildi, şanlı zəfər tarixi yazdı. Hər zaman Azərbaycanın qəsdinə duran erməni faşizminin qəddini əyən, onu sözün əsl mənasında darmadağın edən 44 günlük müharibə həm də zəfərə gedən yolda lider amilinin nə qədər vacib olduğunu bir daha təsdiqlədi. Hamılıqla qəbul edilən həqiqətdir ki, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Zəfərin memarı Prezident İlham Əliyevin liderlik xüsusiyyətləri, yenilməz sərkərdəlik qabiliyyətidir.

İndi işğaldan azad olunmuş ərazilərimizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş abadlıq-quruculuq işləri gedir. Bu yerlərdə dövrümüzün ən qabaqcıl tələblərinə cavab verən, müasir texnologiyaların tətbiqi ilə yaradılan modern infrastruktur həm işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də oraya qayıdacaq insanların normal həyat şəraiti ilə təminatında mühüm rol oynayacaq. Təsadüfi deyil ki, həyata keçirilən abadlıq-quruculuq işlərinin müəllifi olan dövlət başçısı tez-tez işğaldan azad olunan ərazilərə səfərlər edir, burada müxtəlif infrastruktur obyektlərinin təməlini qoyur, açılışlarına qatılır. Həmin obyektlər isə ən müxtəlif sahələri əhatə edir.

Bu yerlər üçün hazırlanan və artıq bəzilərinin, konkret halda Ağdamın baş planından bəlli olur ki, azad edilmiş ərazilərdə müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da əsas diqqət mərkəzindədir. Ümumiyyətlə, Azərbaycanda modern idman infrastrukturunun yaradılması istiqamətində çoxsaylı vacib layihələr həyata keçirilir, mühüm tədbirlər görülür. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Beynəlxalq Olimpiya hərəkatının fəal üzvlərindən olan Azərbaycanda onlarca Olimpiya idman kompleksləri inşa edilib, digər idman obyektlərində əsaslı yenidənqurma işləri aparılıb. Bunun nəticəsidir ki, indi Azərbaycan çoxsaylı beynəlxalq yarışlarına evsahibliyi edir. Və heç şübhə yoxdur ki, tezliklə yeni Olimpiya idman komplekslərinin, digər idman müəssisələrinin inşa ediləcəyi əsas məkanlardan biri də işğaldan azad edilən ərazilərimiz olacaq. Futboldan tutmuş güləşə, şahmatdan başlamış müxtəlif digər intellektual və komanda oyunlarına qədər, eləcə də bir çox digər idman növlərində Azərbaycanı layiqincə təmsil edəcək yeni idmançılar nəsli azad olunmuş ərazilərimizdə də yetişəcək.

Həmin ərazilərdə sürətlə inkişaf edəcək idman növləri sırasında futbol da sözsüz ki, mühüm yer tutacaq. Bu yerlərdə inşa olunacaq futbol infrastrukturu idmanın bu növünün tərəqqisində vacib rol oynayacaq. Ümumiyyətlə, regionlarda futbolun inkişaf etdirilməsi çox vacibdir. Şuşada, Zəngilanda, Qubadlıda, Füzulidə, Cəbrayılda, Ağdamda, eləcə də digər rayon və şəhərlərimizdə futbolun inkişafı istiqamətində görüləcək işlər bütün Azərbaycanda idmanın bu növünün peşəkar və həvəskar iştirakçılarının sayını daha da artıracaq. Əhalinin yaşayış yerlərində futbol infrastrukturunun yaradılması gənclərin, yeniyetmələrin fiziki-mənəvi inkişafına müsbət təsir göstərməklə yanaşı, futbolun təbliği baxımından da əhəmiyyəti olacaq. Qarabağda yeni doğulan uşaqlar futbol məktəblərində yetişməklə ölkəmizdə bu idman növünün inkişafına təkan verəcəklər. Çünki milli komandada oynaya biləcək səviyyədə futbolçuların yetişdirilməsi üçün uşaq futbolunun inkişafı olduqca vacibdir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda uşaq futbolunun inkişafı üçün zəruri maddi baza yaradılıb və bu sahənin inkişafı üçün bir sıra işlər görülüb. İndi azad edilmiş ərazilərdə də yaradılacaq belə bazalar Azərbaycanda yüksəksəviyyəli peşəkar futbolçuların yetişməsində müstəsna rol oynayacaq. Onların sayəsində "İmarət" və digər stadionlarımız yerli və beynəlxalq yarışları qəbul edəcək. Bir sözlə, Qarabağda başlanan yenidənqurma işlərindən idmanımız, o cümlədən futbolumuz yetərincə bəhrələnəcək.

*Uzunmüddətli fəaliyyət planı ilə Azərbaycan futbolunun şöhrəti Qarabağdan dünyanın dörd bir yanına yayılacaq ki, bu da bizim idman ölkəsi kimi bütün dünyada nüfuzumuzu daha da yüksəldəcək. Bu isə Vətən müharibəsində qazanılan qələbənin, yazılan qəhrəmanlıq salnaməsinin yeni bir uğurlu davamı olacaq.*

***Mahmud QURBANOV,***
***"Neftçi-2"nin baş məşqçisi***




# XXXII Tokio Yay Olimpiya Oyunları

## Mübarizə var, medal yox



*Əvvəli 1-ci səh.*

73 kq çəki dərəcəsində mübarizə aparan Avropa çempionumuz 1/16 finalda Rusiya təmsilçisi Musa Moquşkovla qarşılaşdı. Rəqibini vazari ilə məğlub edən 30 yaşlı cüdoçumuz 1/8 finalda tacikistanlı Somon Maxmadbekova da eyni qaydada qalib gəldi. Rüstəmin 1/4 finaldakı rəqibi isə Rio Olimpiadasının finalında uduzduğu yaponiyalı Şohei Ono idi. Lakin təmsilçimiz 5 il əvvəlki məğlubiyyətin revanşını ala bilmədi. O, Olimpiya çempionuna bu dəfə ipponla uduzdu.

Məğlubiyyətə baxmayaraq, Rüstəm mübarizəni təsəlliverici görüşlərdə davam etdirdi. Bürünc medal uğrunda Kosovo təmsilçisi Akil Qyakovanla güləşən təmsilçimiz rəqibini qızıl xalla üstələyərək 3-cü yer uğrunda mübarizə aparmaq şansı qazandı. Bürünc medal uğrunda cənubi koreyalı An Çanq Rimlə görüşdə uduzan Rüstəm çıxışını 5-ci yerdə başa vurdu.

Qeyd edək ki, Olimpiadaya 9 cüdoçu ilə qatılan yığmamızın üzvləri Kəramət Hüseynov (60 kq), Aişə Qurbanlı (48 kq) və Orxan Səfərov (66 kq) da çıxışlarını medalsız başa vurmuşlar.



## Xanım sablyaçımız mübarizəni dayandırdı

Azərbaycan millisinin daha bir idmançısı Olimpiada ilə vidalaşıb. Bu, qılıncoynatma yarışlarındakı yeganə təmsilçimiz Anna Baştadır.

Xanım sablyaçımız Olimpiadada cəmi iki qarşılaşma keçirə bilib. O, mübarizəni 1/8 finalda dayandırıb.

Mübarizəyə 1/16 finaldan başlayan Annanın ilk rəqibi ABŞ qılıncoynadanı Anne-Elizabet Stoun olub. Başta 15:8 hesabı ilə qalib gəlib. O, 1/8 finalda rusiyalı Olqa Nikitina ilə qarşılaşıb. 13:15 hesabı ilə uduzan təmsilçimiz mübarizəni dayandırıb.

## Cavid Çələbiyev 1/8 finalda



Azərbaycan millisinin boksçusu Cavid Çələbiyev Yaponiya paytaxtında ilk qarşılaşmasına çıxıb.

63 kq çəkidə mübarizə aparan dünya çempionumuz "Ryoqoku Kokuqikan" İdman Sarayında keçirilən yarışın on altıdabir final çərçivəsində Yaroslav Hartsizlə (Ukrayna) qarşılaşıb. Görüş təmsilçimizin 5:0 hesablı qələbəsi ilə yekunlaşıb.

C.Çələbiyev səkkizdəbir finalda ermənistanlı Ovannes Baçkovla üz-üzə gələcək. Döyüş iyulun 31-də Bakı vaxtı ilə saat 07:36-da başlayacaq.

## Taekvondoda da medal olmadı

"Tokio-2020"də Azərbaycan taekvondo yığması da mübarizəyə qoşulub. Yarışdakı hər iki təmsilçimiz dünən dayanq üzərinə çıxıb.




Millimizin açılış mərasimindəki bayraqdarlarından biri olan Fəridə Əzizova elə ilk qarşılaşmada uğursuzluqla üzləşib. 67 kq çəkidə yarışan Fəridə 1/8 finalda ABŞ təmsilçisi Peyc Makfersonla görüşüb. 5:8 hesabı ilə uduzan idmançımız Olimpiada ilə vidalaşıb.

Kişilərin 80 kq çəki dərəcəsində mübarizəsində təmsilçimiz Milad Beiqi Harçeqani ilk döyüşündə Çin Taybeyindən olan Vey-Tinq Liu ilə qarşılaşıb. 15:11 hesabı ilə qalib gələn taekvondoçumuz 1/8 final səddini adlayıb. O, 1/4 finalda Özbəkistan idmançısı Nikita Rafaloviçlə üz-üzə gəlib. Görüş ikiqat dünya çempionumuz üçün uğursuz alınıb. Harçeqani üçüncü dəfə qarşılaşdığı Rafaloviçə ikinci dəfə uduzub. Rəqib 12:1 hesabı ilə qalib gəlib.

## Velosipedçimiz uğursuzluğun səbəbini açıqladı

"Yarış zamanı 8 idmançı ilə qrupdan uzaqlaşdım. Bir müddət irəlidə oldum". Bunu Azərbaycan yığmasının velosipedçisi Elçin Əsədov deyib.




Şose yarışlarında finişə çata bilməyən idmançımız Milli Olimpiya Komitəsinin Mətbuat xidmətinə açıqlamasında uğursuzluğu barədə fikirlərini bölüşüb: "Sonra ayağımda qıcolmalar yaşandı. Bilmirəm nədən idi, istidən, yoxsa başqa səbəbdən. Məndə belə hal olmamışdı. Bu il yarışa qədər 17 min məsafə məşq etmişəm, təlim-məşq toplanışları, yarışlar keçmişəm. Belə hal yaşanmamalı idi".

Əsədov yarışdan necə kənarlaşdırılmağından da danışıb: "126-cı kilometrdə qrup mənə çatdı. 140-cı kilometrdə geri qaldım. Sonra da buranın qaydalarına əsasən, qrupdan geri qalan 5-6 idmançı olanda yarışı davam etdirməyə icazə verilmir. Komissar da bizi dayandırdı".

Elçin hazırlıq dönəmində xeyli çəki itirdiyini də deyib: "Olimpiadaya görə 6-7 kq arıqladım. Təəssüf ki, alınmadı. İstəyimə nail ola bilmədim. Üzgünəm. Amma çalışacağam ki, gələcək yarışlarda bayrağımızı yüksəklərdə dalğalandırım. İstiyə qarşı hazırlığım yaxşıdır. Bundan əvvəl Mərakeşdə 45 dərəcə istidə 2-ci olub fəxri kürsüyə qalxmışam. Burada isə alınmadı. Bəzi məsələlər var ki, onlara özüm aydınlıq gətirməliyəm".




## Pevtsov 49 idmançı arasında 41-ci oldu

Olimpiadada triatlonçuların mübarizəsi başa çatıb. Bu növdə Azərbaycanı təmsil edən Rostislav Pevtsov kişilərin fərdi yarışında qüvvəsini sınayıb. 51 idmançı Odaiba Marine Parkda 3 mərhələli mübarizə ilə qalibi müəyyənləşdirib.

1500 metrlik su məsafəsini 18 dəqiqə 27 saniyəyə qət edərək 46-cı tamamlayan Rostislav Pevtsov ardınca 40 km-lik velodistansiyanı 1 saat 17 dəqiqə 29 saniyədə bitirib. 34 yaşlı təmsilçimiz 10 km-lik qaçış zolağına çıxanda 39-cu sırada olub. Yekunda finişə 1 saat 50 dəqiqə 46 saniyəyə çatan Rostislav Pevtsov yarışı tamamlamağı bacaran 49 idmançı arasında 41-ci yeri tutub. İki nəfər isə mübarizəni yarımçıq dayandırıb.

Qızıl medala norveçli Kristian Blummenfet (1:45:04) layiq görülüb. Aleks Yi (Böyük Britaniya - 1:45:15) gümüş, Hyden Vilde (Yeni Zelandiya - 1:45:24) isə bürünc mükafata yiyələnib.



## Gimnastımız finaldan kənarda qaldı

"Tokio-2020"də idman gimnastikasında qadınların təsnifat yarışları başa çatıb. 85 iştirakçı arasında Azərbaycan təmsilçisi Marina Nekrasova da olub.

O, çoxnövçülükdə 48,232 xalla yarışı 70-ci yerdə tamamlayıb və beləliklə, finala yüksələn 24 iştirakçı arasına düşə bilməyib. Marina ayrı-ayrı hərəkətlərdə də 8 finalçı arasına yüksəlməyi bacarmayıb. O, dayaqla tullanmada 12,666 xalla 19-cu, qoşa paralel olmayan turnikdə 10,833 xalla 83-cü, tirdə 12,266 xalla 58-ci, sərbəst hərəkətdə 12,000 xalla 71-ci yerdə qərarlaşıb.

## Tennisçilərdə virus aşkarlandı

Daha iki idmançı koronavirus pandemiyası üzündən "Tokio-2020" Yay Olimpiya Oyunları ilə vidalaşıb.



Tennisçilər Jan-Jülyen Royer və Uesli Koolhof turnirdə iştirak etməyəcək. Cütlərin yarışında 8-ci səpələnmiş olan fransalılar koronavirusun güdazına gedib. Royerin testi müsbət nəticə verib.

Qeyd edək ki, Jan-Jülyen Tokioya Niderlandın paytaxtı Amsterdamdan uçan reyslə gəlib. Həmin təyyarədə olan daha 4 nəfərdə koronavirus aşkarlanıb.

## Bacı və qardaşın olimpiya çempionluqları

XXXII Yay Olimpiya Oyunlarının cüdo yarışında maraqlı hadisə yaşanıb. Belə ki, eyni gündə tatamı üzərinə çıxan bacı və qardaş qızıl medallar qazanıblar.




Yarım saatdan az intervalla çempionluq yaşayan Yaponiya təmsilçiləri öz çəkilərində hegemonluğu davam etdiriblər. 21 yaşlı Uta Abe qadınların 52 kq, ondan üç yaş böyük olan Hifumi Abe isə kişilərin 66 kq çəkidə hamıdan güclü olduğunu göstərib. Bu, Abelərin eyni gündə çempionluq yaşadığı ilk hadisə deyil. Onlar üç il əvvəl də belə tarixi nailiyyət əldə ediblər. Bacı və qardaş Bakıda keçirilən dünya çempionatında qısa zaman kəsiyində iki finalda qalib olub.



## Tunisli üzgüçüdən sürpriz nəticə

18 yaşlı tunisli üzgüçü Ahmed Ayub Hafnau "Tokio-2020" Yay Olimpiya Oyunlarında qızıl medal qazanıb.

O, 400 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarında bütün rəqiblərini qabaqlamağı bacarıb. Gənc idmançı məsafəni 3 dəqiqə 43 saniyəyə qət edib. Avstraliya idmançısı Cek Maklaflin gümüş, ABŞ təmsilçisi Kiran Smit isə bürünc medala sahib olublar.

## 13 yaşında Olimpiya çempionu oldu

Yaponiyalı Momidzi Nisiya 13 yaşında olimpiya çempionu olub. Yeniyetmə qız "Tokio-2020"də skeytbordun strit növündə fərqlənib. Nisiya 13 yaş 330 günlüyündə qızıl medal qazanıb.

O, Yay Olimpiya Oyunları tarixində ikinci ən gənc çempiondur. Yalnız ABŞ idmançısı Marcori Qestrinq daha gənc yaşında çempionluq sevinci yaşayıb. Amerikalı 1936-cı ildə suyatullanmada 13 yaş 268 günlüyündə qızıl medala yiyələnib.

***"Azərbaycan"***



# bp Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron yarımadası ətrafında dayazsulu sahənin (AYDS) kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin operatoru kimi saziş üzrə iş proqramı çərçivəsində AYDS-in kəşfiyyat qazma fəaliyyətləri (ikinci quyu) üzrə hazırlanmış Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə versiyasını müzakirə etmək üçün ictimaiyyətlə açıq virtual görüş keçirir

bp bütün maraqlı tərəfləri **28 iyul 2021-ci il tarixində saat 14:00-dan 16:00-dək** "Microsoft Teams" vasitəsilə onlayn rejimdə keçiriləcək görüşdə iştirak etməyə dəvət edir.

**ƏMSSTQ sənədlərinin layihə versiyası və rəy formaları 1 iyul 2021-ci il tarixindən bp-nin vebsaytına yerləşdirilmişdir və onları aşağıdakı linklər vasitəsilə yükləmək mümkündür:**

- ƏMSSTQ sənədi: https://www.bp.com/content/dam/bp/country-sites/en_az/azerbaijan/home/pdfs/esias/swap/swap_bhex_esia_aze_290621.pdf
- Rəy forması: https://go.bp.com/bAB8G

Görüş zamanı bp tərəfindən təqdimatlar ediləcək və ƏMSSTQ-nin layihə versiyası haqqında auditoriyanın sualları cavablandırılacaq, həmçinin şərh və rəylər dinləniləcək. Rəy və təklifləri həmçinin esiafeedback@bp.com elektron ünvanına göndərməklə də təqdim etmək olar.

**Görüşə aşağıdakı linklərdən biri və ya QR kodu vasitəsilə qoşulmaq olar: Click here to join the meeting** və ya **https://go.bp.com/XnJer**

**Qoşulma təlimatı**

| Kompüterdən qoşulma | Mobil telefondan qoşulma |
|---|---|
| "Microsoft Teams" vasitəsilə görüşə qoşulmaq üçün təqdim edilmiş linkdən istifadə edin. Bu linkin açacağı səhifədə siz görüşə ya veb vasitəsilə ya da kompüter proqramını yükləməklə qoşula bilərsiniz. Əgər sizdə artıq Teams proqramı varsa, görüş avtomatik şəkildə açılacaq.<br><br>Əgər sizin Teams hesabınız yoxdursa və görüş təşkilatçısı bu funksiyaya icazə veribsə, siz adınızı daxil etməklə, görüşə "qonaq" qismində qoşula bilərsiniz.<br><br>Əgər sizin Teams hesabınız vardırsa, o zaman Sign in bölməsinə daxil olmaqla görüşə qoşula bilərsiniz (onun yazışma (chat) və əlavə funksiyalarına giriş imkanı əldə etməklə). | Audio, video və məzmun bölüşmə funksiyaları da daxil olmaqla, mobil telefonda Teams proqramından ən yaxşı şəkildə istifadə edə bilmək üçün Teams proqramının mobil versiyasını yükləməli və quraşdırmalısınız.<br><br>Əgər bu proqram sizdə varsa, proqramı açıb görüşə qoşulmaq üçün **"Join Microsoft Teams Meeting"** linkindən istifadə edin. Əgər bu proqram telefonunuzda yoxdursa, qeyd edilmiş link sizi "app store" platformasına yönləndirəcək və siz oradan həmin proqramı yükləyə bilərsiniz.<br><br>Əgər Teams hesabınız yoxdursa, "qonaq"qismində görüşə qoşulmaq üçün **"Join as a guest"** bölməsini seçin və adınızı daxil edin.<br><br>Əgər Teams hesabınız varsa, o zaman görüşə qoşulmaq (proqramın yazışma (chat) və əlavə funksiyalarına giriş imkanı əldə etməklə) üçün **"Sign in and join"** bölməsini seçin. |

**Qeyd:** Proqramı görüş başlamamışdan əvvəl yükləməyə çalışın. Proqramın yüklənməsi internet bağlantınızdan asılı olaraq bir-iki dəqiqə vaxt apara bilər.

## B İ L D İ R İ Ş

"Azərsu" ASC tərəfindən "Azərbaycan" qəzetinin 02.06.2021-ci il və 15.06.2021-ci il tarixli nömrələrində Azərbaycan Respublikasının dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində "Salyan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması" işlərinin satın alınması üzrə dərc edilmiş açıq tenderdə iştirakçıların müraciətini nəzərə alaraq, zərflərin açılışı saatı dəyişdirilərək 16:30-a təyin edilmişdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

22.06.2021-ci il tarixdə Dövlət satınalmalarının vahid internet Portalında **(https://www/etender.gov.az)** və "Azərbaycan" qəzetinin 23 iyun 2021-ci il tarixli nömrəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən Uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması tədbirləri üzrə dərman vasitələrinin satın alınması üçün elan edilmiş açıq tender (elektron) İddiaçının sorğusu əsasında "Dövlət satınalmaları haqqında" AR Qanunun 30.2-ci maddəsinə əsasən, ilkin sənədlərin qəbulu tarixi 15 iyul 2021-ci il saat 10:00-dək, tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu isə 27 iyul 2021-ci il saat 10:00-dək uzadılır. Tender üzrə təklif zərflərinin açılışı 28 iyul 2021-ci il saat 10:00-də keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 400 (dörd yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin Əlavə 1-nə uyğun);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1)*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 30.08.2021-ci il saat 16:00-dək tender təklifi və tender təklifinin bank təminatını 07.09.2021-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 08.09.2021-ci il saat 16.00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

*Təkrar*

### Azərbaycan Respublikasının dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində "Balakən şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması" işlərinin satın alınması üçün *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili şöbəsindən (əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: (+ 99 412) 431-47-67/87 - daxili 1033, e-mail: **i.tagiyev@azersu.az** və Novruzov İntizam Cəmil oğlu, telefon: (+ 99 412) 431-47-67 - daxili 2259, e-mail: **intizam.novruzov@azersu.az)** ala bilərlər.

**İşlərin qısa təsviri:**
Magistral su kəmərinin çəkilməsi, su anbarlarının tikintisi və digər əlaqədar işlər.
**Tenderdə iştirak haqqı: 500,00 (beş yüz) AZN**
**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapital bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender iştirakçıları tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (konkret subpodratçının adı göstərilməklə);*
- *İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18.08.2021-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **26.08.2021-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində **27.08.2021-ci il saat 16:00-da** açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan Dənizçi MTK-nın balansında olan 1B binasının daxili tamamlanma işlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 11 avqust 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli və kollektivi institutun Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Zəhra Allahverdiyevaya əzizi **QUBAD ALLAHVERDİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" nəşriyyatının kollektivi "Ədalət" qəzetinin baş redaktoru İradə Tuncaya anası **GÜLXANIM MƏLİKMƏMMƏDOVANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Maliyyə idarəsinin "İqtisadi proqnozlaşdırma və daxili audit şöbəsi"nin əməkdaşı Murad İbrahimova atası **FİZULİ MÜƏLLİMİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4580
Sifariş 1338
Qiyməti 40 qəpik